

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qələbə tariximizin yazıldığı günlər



6

№ 199 (7124)

29 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# "Azərbaycan və Pakistan bir-birini həmişə dəstəkləyir"



2

*Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib*

# Gürcüstandakı seçkilərdən sonrakı GÖZLƏNTİLƏR



4

YAP-ın təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" intellektual oyununun bağlanış mərasimi keçirilib



5

TÜRKİYƏ: Böyük Zəfərdən Böyük Cümhuriyyətə



8

Əli Kərimlinin xəstə ambisiyaları Nurəddin Məmmədlinin istefası ilə nəticələndi



12

Qarabağın inciləri: firəng Əhməd



15

Kredit götürən şəxs vəfat edibsə, borcun aqibəti necə olacaq?





12

# “Azərbaycan və Pakistan bir-birini həmişə dəstəkləyir”

***Prezident İlham Əliyev oktyabrın 28-də Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzanı qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı general Sahir Şamşad Mirzanın səfərinin ölkələrimiz arasında güclü tərəfdaşlıq, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərinin bir daha nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi.***



*Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib*

Prezident İlham Əliyev bu il qardaş Pakistana dövlət səfərinin çox uğurlu və məhsuldar keçdiyini vurğulayaraq, bunun dostluq və qardaşlıq münasibətlərimizin daha yüksək səviyyəyə qalxması işinə töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birini həmişə dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini qeyd etdi.

Əməkdaşlığımızın, o cümlədən ticarət sahəsində əlaqələrimizin əsas istiqamətlərinin artıq müəyyənləşdirildiyini bildirən dövlətimizin başçısı dedi ki, özünün Pakistana dövlət səfəri zamanı Azərbaycanın bu ölkəyə 2 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu imkanları barədə bəyanat verilib və bu sahədə sıx əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər.

Müdafiə sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev bir müddət əvvəl artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilən JF-17C təyyarələrinə baxdığını məmnunluqla xatırlayaraq, onların dünya səviyyəsində ən yaxşı təyyarələrdən olduğunu dedi. Dövlətimizin başçısı bu hadisənin müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev müdafiə sənayesi ilə bağlı genişhəcmli əməkdaşlıqda, o cümlədən istehsal, investisiya, texnologiyalar sahələrində uğurlu nəticələrin əldə olunacağına əminliyini bildirdi. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin COP29 tədbirində iştirakının və gələn il ölkəmizə dövlət səfərinin Azərbaycanda səbirsizliklə gözlənildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinin Bakıda keçirəcəyi görüşlərin uğurlu olacağına ümidvar olduğunu bildirdi. Azərbaycan dövlətinin başçısı ilə görüşündən şərəf duyduğunu vurğulayan Sahir Şamşad Mirza Prezident İlham Əliyevin əfsanəvi şəxsiyyət olduğunu qeyd etdi. Qonaq Pakistan Prezidenti Asif Əli Zərdari və Baş nazir Məhəmməd Şahbaz Şərifin salamlarını, Pakistan xalqının ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi. Sahir Şamşad Mirza Azərbaycan Prezidentinin Pakistana dövlət səfərinin ikitərəfli münasibətlərimizin inkişafında tarixi təməl daşı olduğunu dedi.

Qonaq ölkəmizdə keçirilən prezident seçkilərində İlham Əliyevin, parlament seçkilərində isə hakim Yeni Azərbaycan Partiyasının qələbəsinin önəmini qeyd edərək vurğuladı ki, dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin davamçısıdır. Sahir Şamşad Mirza qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin inkişafı fenomenal hadisə olmuşdur. Qonaq bu cür inkişafa, o cümlədən ümumi daxili məhsulun və əhalinin rifah halının artma templərinə heç bir ölkədə rast gəlinmədiyini dedi.

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Vətən müharibəsində Azərbaycanın Qələbəsinin önəmini vurğulayaraq qeyd etdi ki, ölkəmizin əsgər və zabitlər ilə bağlı baxışı, yerli istehsalın təşviqi, müharibədə müdafiə sənayesi kompleksi və güclü hərbi imkanlarla bərabər, müdafiənin bir növü olan qabaqlayıcı strategiyanın tətbiqi dünyaya çox aydın bir siqnal oldu ki, Azərbaycan hədəfə köklənib və irəliləyir.

Ölkəmizdə gedən inkişaf proseslərinin nümunə olduğunu qeyd edən qonaq Pakistanın Azərbaycan ilə qardaşlıq əlaqələrinin qarşılıqlı inama, səmimiliyə, əməkdaşlığa, mədəni əsaslara söykəndiyini dedi. O, qarşıdan gələn Zəfər Günü münasibətilə təbriklərini çatdırdı və bu bayramın Pakistanda da qeyd edildiyini məmnunluqla vurğuladı. Sahir Şamşad Mirza qeyd etdi ki, Kəşmir məsələsində Azərbaycan Pakistanın yanında olduğu kimi, Ermənistan məsələsində də Pakistan Azərbaycanın yanındadır.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sumqayıtda “Ülviyyət” adlı tədbirdə iştirak edib











Oktyabrın 28-də Sumqayıt Reabilitasiya Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş “Ülviyyət” adlı tədbir keçirilib. Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. Tədbirin açılışında Azərbaycan Milli Konservatoriyasının nəzdində Sumqayıt Musiqi Kollecinin simli kvartetinin ifasında musiqi əsərləri səsləndirilib.

Leyla Əliyeva tədbirdə sərgilənən müxtəlif sənət əsərləri ilə yaxından tanış olub. Sərgidə rəssamlıq, daş tozundan fiqurların tökülməsi, ağac üzərində bədii oyma, toxuculuq və digər sənət növləri üzrə əl işləri nümayiş olunub. Tədbir çərçivəsində, həmçinin şəhid ailəsi üzvlərinin əl işlərindən ibarət kulinariya sərgisi də təşkil edilib. Bundan əlavə, şəhid övladlarından ibarət “Zəfər sədası” xor qrupunun ifasında səsləndirilən Vətənə həsr olunmuş mahnılar tədbirə xüsusi ab-hava qatıb.

Sonda Sumqayıt Reabilitasiya Mərkəzinin əməkdaşları və sağlamlıq imkanları məhdud şəxslər birgə türk rəqsi ifa ediblər. Qarabağ müharibəsi qazisi və Sumqayıt Reabilitasiya Mərkəzinin əməkdaşının inklüziv rəqsi də iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, bu cür tədbir və sərgilərin təşkili əlilliyi olan şəxslərin və şəhid ailələrinin üzvlərinin cəmiyyətə daha çox inteqrasiyasına, onların inklüzivlik meyarlarının artmasına və sosial statuslarının yaxşılaşmasına xidmət edir.

# Türkiyə 101 illik tarixi yolda

***Siyasi, iqtisadi, hərbi cəhətdən qüdrətli və sabit olan Türkiyə Cümhuriyyəti müstəqilliyinin 101-ci ildönümünü qeyd edir. Azərbaycana dost, qardaş ölkə olan Türkiyə uğurlu bir inkişaf yolu keçib. 1923-cü il oktyabrın 29-da idarəetmə formasına görə respublika elan olunan Türkiyə 101 ildir ki, müstəqil yaşayır. Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürk Qurtuluş savaşında Qərb ölkələri üzərində qələbədən sonra 1923-cü il oktyabrın 29-da Türkiyədə respublika qurulduğunu elan edib.***



Əlbəttə ki, Türkiyə Respublikasının qurulması türk milləti və bu ölkənin varlığı uğrunda mübarizə aparanlar üçün çətinliklər, ağır imtahanlar hesabına əldə olunub. Tarixi dövrə nəzər salsaq görərik ki, Türkiyə dünyanın siyasi və hərbi baxımdan çox mürəkkəb dövründə respublika olmaq qərarına gəlir. Belə ki, Birinci Dünya müharibəsindən məğlub ayrılan Osmanlı imperiyası İngiltərə, Yunanıstan, Fransa və İtaliya kimi xarici dövlətlərin işğalı ilə üzləşib. Belə bir dövrdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə türk vətənsevərlər 1919-cu il mayın 19-da Samsundan ölkənin azadlığı uğrunda mübarizəyə başlayıblar. Ağır və əzmkar mübarizə qısa müddət sonra müsbət nəticəsini verməyə başladı, vətən torpaqları düşmən tapdağından xilas edildi. Tarixi zəfərlərlə zəngin olan Türkiyənin zəfərləri sırasında ən önəmli yerlərdən birini tutan 30 avqust 1922-ci ildə sonu qələbə ilə bitən Dumlupınar savaşı olub.

### “APARDIĞI MÜBARİZƏ MƏZLUM MİLLƏTLƏRİN, BÜTÜN ŞƏRQİN MÜBARİZƏSİDİR”

Mustafa Kamal Paşa həmin dövrdə deyirdi: ”Türkiyənin bugünki mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir”. Mustafa Kamal Paşa tarixi əmrini vermişdi: ”Ordular! İlk hədəfiniz Ağ dənizdir. İrəli!” Bu əmri alan qəhrəman türk ordusu böyük bir qələbə həyəcanı ilə irəli atıldı. Türk süvariləri, xüsusilə çevik hərəkətləri ilə uğurlar qazandılar. Aparılan mübarizə və mücadilə uğurlu bir sabahla nəticələndi. Tarixi mənbələrdə qeyd olunur ki, 1923-cü il oktyabrın 23-də Ankara paytaxt elan edildi. Oktyabrın 28-də axşam Mustafa Kamal Paşa yaxın dostlarını Çankayaya dəvət etdi və ”sabah respublikanı elan edəcəyik”, dedi. Oktyabrın 29-da Mustafa Kamal Atatürk əvvəlcədən hazırladığı və ölkənin respublika elan olunmasını nəzərdə tutan layihəni TBMM-ə təqdim etdi. Həmin layihədə ”Türkiyə dövlətinin forması cümhuriyyətdir. Türkiyə dövləti Böyük Millət Məclisi tərəfindən idarə olunur” sözləri yer alırdı. Parlament həmin qanun layihəsini qəbul etdi və Türkiyə respublika elan olundu. Həmin tarixdən etibarən Osmanlı imperiyası rəsmi şəkildə Türkiyə Cümhuriyyəti ilə əvəzləndi. Ölkənin ilk prezidenti Mustafa Kamal Atatürk (1923-1938) olub.

### ”DÜNYA MİQYASINDA TÜRKİYƏ VƏ AZƏRBAYCAN QƏDƏR BİR-BİRİNƏ YAXIN İKİNCİ ÖLKƏ TAPMAQ MÜMKÜN DEYİL”

Dövlətçilik ənənələri olmadan müstəqilliyə nail olmaq və onu qoruyub saxlamaq əlbəttə ki, mümkün deyil. Ötən 101 ildə Türkiyə Cümhuriyyəti müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək dünyanın inkişaf etmiş ölkələrindən birinə çevirdi. Milli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən bir millət, iki dövlət səviyyəsinə yüksəldilmiş Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır. Vətən müharibəsində Türkiyə dövlətinin Azərbaycana göstərdiyi siyasi dəstək bunun bariz ifadəsidir. Bu məqamda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün ”Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir” ifadəsini xatırlamaq yerinə düşər.

Beynəlxalq Qars müqaviləsinə əsaslanan siyasi müttəfiqliyimiz 100 ildən sonra Şuşa Bəyannaməsi ilə bir daha təsdiq olunmuş, həm ikitərəfli münasibətlərimiz, həm də regional əməkdaşlığımız yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, ”Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq”.

### TÜRKİYƏ-AZƏRBAYCAN ƏLAQƏLƏRİ TƏKCƏ İKİ ÖLKƏYƏ DEYİL, BÖLGƏYƏ SÜLH VƏ SABİTLİK GƏTİRİR

Ölkə prezidentlərinin 2021-ci il iyunun 15-də türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada dostluq və qardaşlığımızı gücləndirəcək, əlaqələrin daha da inkişafına səbəb olacaq Şuşa Bəyannaməsini imzaladılar. Bu Bəyannamə müttəfiqlik münasibətlərinin gündən-günə genişlənməsində əhəmiyyətli bir sənəddir. Bu gün Türkiyə-Azərbaycan əlaqələri yalnız iki ölkəyə deyil, bölgədə sülh və sabitliyə xidmət etməkdədir.

Ümummilli Lider Heydər Əliyevin bütün türk dünyasında məşhur olan kəlamı – ”Bir millət, iki dövlət” anlayışı gerçək həyatda təcəssümünün şahidi olduğumuz tarixi məqamda Türkiyənin dünyada artan nüfuzu və rolu hər bir azərbaycanlıda qürur hissi yaşadır. Bu gün Azərbaycan-Türkiyə münasibətləri Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, dünyada bənzəri olmayan qarşılıqlı etibara və etimada əsaslanır. Bizim xalqlarımızı birləşdirən yalnız etnik, dini və mədəni köklər deyil, eyni zamanda, mürəkkəb və ziddiyyətli proseslərin cərəyan etdiyi XXI əsrdə bir-birimizin yanımızda olmağımızdır.

Azərbaycan-Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportunun açılışı Azərbaycandan dünyaya bir mesaj oldu. Hava Limanının Azərbaycan və Türkiyə Prezidentlərinin birgə iştirakı ilə açılışı qardaş ölkə ilə birliyimizi, dostluğumuzu, gücümüzü bir daha göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqlarının dalğalanması da qırılmaz dostluğumuzdan qaynaqlanır. Azərbaycan və Türkiyə prezidentlərinin Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini birgə qoymaları tarixi bir hadisə olaraq əbədiləşdi. Zəngəzur dəhlizi türk dünyasının birləşməsi, regionun təhlükəsizliyi və sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. İki qardaş ölkənin birgə səyi ilə fəaliyyətə başlayacaq Zəngəzur dəhlizi yalnız Azərbaycanın və Türkiyənin deyil, bütün region xalqlarının həyatında dəyişikliklər mərhələsinin başlanmasına səbəb olacaq. ”Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik” – deyən dövlət başçısı bildirib ki, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar: ”Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq”

Zəngilanın işğaldan azad edilməsindən iki il sonra qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan və Cəbrayıla səfər etməsi və Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirakı tarixi hadisəyə çevrildi. Hər zaman bir-birinin yanında olan Azərbaycan və Türkiyənin birliyinin, həmrəyliyinin dünya üçün nümunə olduğu bir daha təsdiqləndi. Əlbəttə ki, bu və ya digər yaddaqalan hadisələrlə zəngin olan tarixi qardaşlıq nümunələri bir daha göstərdi ki, bizim birliyimiz Azərbaycan – Türkiyə birliyi əbədi və sarsılmazdır.

### “ƏCDADLARIMIZIN MƏNƏVİ MİRASI OLAN QARDAŞLIĞIMIZ, BİRLİYİMİZ VƏ HƏMRƏYLİYİMİZ XALQLARIMIZ ÜÇÜN ƏSAS YOL İSTİQAMƏTİDİR”

Hazırda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. O, 2014-cü ilin 10 avqustunda ilk dəfə xalq tərəfindən ümumi səsvermə ilə seçilib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğan tam üstünlüklə qalib gələrək ölkənin 13-cü Prezidenti seçilməsi Türkiyə ilə yanaşı, həm də Azərbaycanın siyasi qələbəsi kimi səsləndi. Əlbəttə ki, son illərdə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qədər yüksəlməsi mövcud əlaqələrin möhkəmliyinə, sarsılmazlığına əsaslanır. 2023-cü ildə keçirilən seçkilər bir daha göstərdi ki, Türkiyə cəmiyyəti son dərəcə demokratdır, bu ölkənin vətəndaşları yüksək siyasi mədəniyyətə sahibdirlər. Həm seçkilərin keçirilməsi prosesi, həm də onun nəticələri bizə deməyə əsas verir ki, qardaş ölkədə demokratiya, haqq-ədalət zəfər çaldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana seçkilərdən sonra zəng edərək prezident seçkilərində əldə etdiyi qələbə münasibətilə təbriki qardaşlıq münasibətlərin yüksək səviyyədə olduğunu bir daha təsdiqləmiş oldu. Bu, dünya dövlətləri arasında Türkiyə Prezidentinə ünvanlanan ilk təbrik idi. Əlbəttə ki, belə də olmalı idi. Prezident İlham Əliyev bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirərək, əmin olduğunu bildirmişdi ki, Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək.

Son 20 ildə Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə böyük tarixi yol qət edib. Bu illər geniş islahatlar və inkişafla yanaşı, siyasi böhranlarla da müşayiət olunub. 2016-cı il iyulun 15-də dövlət çevrilişinə cəhdin iqtidar-xalq birliyi ilə dəf edilməsi ölkənin həm daxildən güclənməsinə, həm də regional və beynəlxalq məsələlərdə daha çox söz sahibi olmasına zəmin yaradıb. Bu günün Türkiyəsi daha güclü, sürətlə inkişaf edən milli hərbi sənayesi ilə daha da qüdrətlidir.

Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib. Qardaş ölkədə seçkilərin tam demokratik şəkildə keçirilməsi və Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsi bu ölkənin gələcək uğurlarını təmini deməkdir. Onun liderliyi ilə Türkiyə inkişaf yolunda daha yüksək zirvələr fəth edir. Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: ”İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir.”

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP-ın təşkilatçılığı ilə “Nə? Harada? Nə zaman?” intellektual oyununun bağlanış mərasimi keçirilib










***Oktyabrın 26-da “Gülüstan” sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilmiş ümumrespublika “Nə? Harada? Nə zaman?” intellektual oyununun final mərhələsinin mükafatlandırma mərasimi keçirilib.***



Əvvəlcə tədbirdə müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov “Nə? Harada? Nə zaman?” intellektual oyununun nəticələri barədə hesabat verib. O bildirib ki, bu il “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar təşkil olunan yarışın əsas məqsədi silsilə tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən YAP üzvü və bitərəf gənclər arasında şəbəkələşmənin dərinləşdirilməsi, ekologiya və bioloji müxtəliflik haqqında gənclərin bilik səviyyəsinin artırılması, eyni zamanda, gənclərin intellektual inkişafının və komanda ruhunda işləmək bacarıqlarının təşviqidir.

Bəxtiyar İslamov vurğulayıb ki, “Azərbaycan İntellektual Klublar Assosiasiyası”İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində YAP yerli təşkilatlarını və Gənclər Birliyini təmsil edən 85 komandanın iştirakı ilə keçirilən intellektual oyunun seçmə mərhələsi üzrə yarışlar Bakı, Quba, Qəbələ, Şəmkir, Ağcabədi, Masallı, Kürdəmir və Naxçıvanda təşkil olunmuş, 22 komanda final mərhələsinə vəsiqə qazanmışdır: “85 komandanın tərkibində iştirak edən 680 nəfərin 264-ü bitərəf, 416-sı isə YAP üzvü gənclərdir. Onu da bildirim ki, intellektual oyun üçün hazırlanmış sualların əsas istiqamətləri ekologiya və biomüxtəliflik, ölkəmizin təbiəti, flora və faunası, Azərbaycanda həyata keçirilən ekoloji siyasət, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə ekologiya sahəsində atılmış addımlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər, həmçinin Heydər Əliyev Fondu tərəfindən bu istiqamətdə görülən işlər olmuşdur”.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, çoxəsrlik dövlətçilik tarixinin ən şanlı və şərəfli dövrünü yaşayan qalib Azərbaycan qazandığı möhtəşəm uğurlar və yaratdığı yeni reallıqlarla bu gün dünyanın diqqət mərkəzindədir: “Ərazi bütövlüyü və suverenliyini bərpa edərək Cənubi Qafqazda yeni təhlükəsizlik və işbirliyi mühiti formalaşdıran Azərbaycan dövləti beynəlxalq müstəvidə etibarlı tərəfdaş, dialoq və əməkdaşlıq məkanı kimi tanınır”.

YAP Sədrinin müavini vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanmaqla bərabər, bəşəriyyəti düşündürən, xalqlar və dövlətlər üçün olduqca aktual çağırışlara da adekvat cavab verir. O diqqətə çatdırıb ki, ”yaşıl enerji” gündəliyi əsasında iqlim dəyişikliyinə qarşı qlobal mübarizə sahəsində ardıcıl fəaliyyətin həyata keçirilməsi də bu kontekstdə xüsusi qeyd edilməlidir: “Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması və “yaşıl enerji” gündəliyinin reallaşdırılması istiqamətində sistemli tədbirlər görülür. Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması isə bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bütün bu reallıqlar fonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar Azərbaycanın sözügedən istiqamətdə fəaliyyətinin yüksək qiymətləndirildiyini, ölkəmizə beynəlxalq müstəvidə böyük etimadın olduğunu bir daha təsdiqləyir”.

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, Azərbaycan qlobal tədbirlərə ev sahibliyi ilə əlaqədar zəngin təcrübəyə malikdir: “İndiyədək bu sahədə əldə olunan uğurlu nəticələr - imza atdığımız nailiyyətlər Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə də uğurla ev sahibliyi edəcəyini əminliklə söyləməyə əsas verir. Şübhəsiz, bir neçə gün sonra keçiriləcək COP29 iqlim dəyişmələrinə qarşı fəal mübarizə mövqeyi nümayiş etdirən ölkəmizin bu bəşəri əhəmiyyətli, qlobal xarakterli prosesə dəyərli töhfəsi olacaq, eyni zamanda, Azərbaycan reallıqlarının dünyaya təqdimatı üçün növbəti mühüm platformaya çevriləcəkdir”.

Ardı Səh. 5

# YAP-ın təşkilatçılığı ilə “Nə? Harada? Nə zaman?” intellektual oyununun bağlanış mərasimi keçirilib












Əvvəli-Səh-4

Tahir Budaqov söyləyib ki, Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə respublika səviyyəsində keçirilən “Nə? Harada? Nə zaman?” intellektual oyunu da “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilmişdir: “Məlumat verildiyi kimi, 85 komandanın iştirakı ilə keçirilən və 22 qalib komandanın final mərhələsində I-III yerlər uğrunda mübarizə apardığı bu intellektual yarışmada gənclərimiz ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın təmini istiqamətində həyata keçirilən dövlət siyasətinə - Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə görülmüş işlərə, o cümlədən “yaşıl enerji” konsepsiyası əsasında reallaşdırılan tədbirlərə dair çoxsaylı sualları cavablandırmaqla intellektual mübarizə aparmışlar. Hər ilin aktual gündəliyinə həsr olunan və 2022-ci ildən başlayaraq artıq ənənə halını almış bu bilik yarışması gənclərin potensialının üzə çıxarılması, onlar arasında kommunikasiyanın gücləndirilməsi və komanda şəklində birgə çalışmaq bacarıqlarının yüksəlməsinə geniş imkanlar yaradır”.

“Bu gün inam və qürurla qeyd edirik ki, milli-mənəvi dəyərlərə sadiq və möhkəm əqidəli Azərbaycan gəncliyi cəmiyyət həyatının müxtəlif sahələrində yüksək fəallıq nümayiş etdirməklə ölkəmizin inkişafına mühüm töhfələr verir və respublikamızı beynəlxalq arenada layiqincə təmsil edir. Ən əsası, rəşadətli Azərbaycan gənclərinin yüksək vətənpərvərlik nümunəsi göstərərək ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasında müstəsna rol oynamaları xalqımızın qürur və iftixar mənbəyidir”,- deyən YAP Sədrinin müavini əlavə edib ki, gəncləri Azərbaycanın gələcəyi adlandıran Ümummilli Lider Heydər Əliyevin xalqımıza dəyərli siyasi mirası olan və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf yolunda inamla addımlayan Yeni Azərbaycan Partiyası gənclərin inkişafına və onların potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir.

Tahir Budaqov bildirib ki, müstəqil Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur: “Qazanılan uğurlar və qələbələrlə yanaşı, qarşıda mühüm strateji hədəflər durur. Təbii ki, Azərbaycanın gələcək inkişafı naminə milli məqsədlərin gerçəkləşdirilməsi üçün gənclərin də üzərinə önəmli vəzifələr və böyük məsuliyyət düşür. Heç şübhəsiz, dövlətin hərtərəfli qayğısı ilə əhatə olunan gənc nəsil qalib Azərbaycanın qürurlu vətəndaşları kimi ölkəmizin tərəqqisinə bundan sonra da layiqli töhfə vermək əzmində və iqtidarındadır. Bu gün final mərhələsinin keçirildiyi bu intellektual yarışmada iştirak edən bütün gəncləri, xüsusilə qalibləri təbrik edirəm. Əslində, bu bilik mübarizəsinə qatılan hər bir komanda özünü qalib hesab edə bilər. Çünki hər şeydən öncə, belə kreativ platformalarda təmsil olunmaq Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə sonsuz inamın birmənalı ifadəsidir”.

YAP Sədrinin müavini gənclərə möhkəm cansağlığı və Heydər Əliyev ideyaları əsasında günü-gündən çiçəklənən müasir Azərbaycanın parlaq gələcəyi naminə yeni-yeni uğurlar arzulayıb.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov isə çıxışında bildirib ki, bu gün Azərbaycan sürətli inkişaf dövrünü yaşayır və bu da yaradıcı və intellektual gənclər üçün öz təşəbbüslərini reallaşdırmaqda yeni imkanlar yaradır: “Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2024-cü il Azərbaycan Respublikasının ictimai-siyasi həyatında dinamik bir il kimi xarakterizə olunur. Bu il keçirilmiş prezident və parlament seçkilərində cəmiyyətin ən aktiv təbəqələrindən hesab olunan gənclik siyasi proseslərin önündə addımlamış, ona göstərilən etimadı doğrultmuşdur. Bu istiqamətdə Yeni Azərbaycan Partiyasının və onun Gənclər Birliyinin üzvlərinin fəaliyyətini xüsusilə vurğulamaq istərdim”.

Nazir müavini qeyd edib ki, gənclər siyasi fəaliyyətlə yanaşı, onlara yaradılan geniş imkanlardan istifadə etməklə öz bilik və bacarıqlarını artırmaq məqsədilə müxtəlif platformalardan məharətlə istifadə edirlər: “İntellektual yarışların əsas məqsədi gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından səmərəli istifadə etməkdir”.

Vüqar Kərimov diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilmiş, beynəlxalq səviyyədə əhəmiyyətli və etibarlı tərəfdaş kimi tanınmışdır: “Bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməyimiz ölkəmizin ətraf mühitin qorunması, iqlim dəyişmələrinin fəsadlarının qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Ölkə başçısının müvafiq Sərəncamı ilə elan edilmiş “Yaşıl dünya naminə həmrəylik ili”nin ətraf mühitin mühafizəsi sahəsində birgə təşəbbüslərin reallaşdırılması üçün əlverişli fürsət olacağına əminik”.

Nazir müavini 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı çərçivəsində görülən işləri diqqətə çatdırıb. O bildirib ki, gənclərin ətraf mühitin idarə olunmasında yeni yanaşmaların tətbiqi, modern və çevik idarəetmə formalarından istifadə sahəsində fəaliyyətləri nəzərəçarpacaq dərəcədə hiss olunur: “Onlar ətraf mühitin qorunması və ekoloji maarifləndirmə istiqamətində novator baxışları ilə seçilir, öz bacarıqlarını nümayiş etdirir, ətraf mühitlə bağlı məsələlərin həllində təşəbbüskarlıq göstərirlər. Biz iqlim dəyişikliyi, təbii ehtiyatların qorunması və səmərəli istifadəsi, ekosistemlərin dayanıqlılığının təmin edilməsi, tullantıların idarə edilməsi, meşələrin artırılması, səhralaşmanın və torpaq deqradasiyasının qarşısının alınması ilə bağlı məsələlərin həllində yaradıcı gənclərin iştirakına böyük ümid bəsləyirik”.

V.Kərimov çıxışının sonunda qeyd edib ki, intellektual yarışların keçirilməsi gənclərin ideyayönümlü potensiallarının aşkarlanması, onların komanda qurmaq və idarəetmə bacarıqlarının təkmilləşdirilməsi istiqamətində biliklərinin artmasına mühüm töhfələr verəcəkdir. Bundan sonra I, II, III yerləri tutmuş Nəsimi, Gəncə və Yasamal komandalarının oyunçuları müvafiq diplomlar, medallar və xatirə hədiyyələri ilə, qalib komanda isə əlavə olaraq kubokla təltif olunub.

III yerin qalibi – Yasamal komandasını YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, II yerin qalibi – Gəncə komandasını YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə, I yerin qalibi – Nəsimi komandasını isə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Qələbə tariximizin yazıldığı günlər

*Prezident İlham Əliyev: "Müharibəni dayandırmağın yeganə yolu Ermənistanın dayanması, öz məğlubiyyətini, bizim isə qələbəmizi qəbul etməsi, əraziləri boşaltmasıdır"*



44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qarşısında bir hədəf var idi: mülki insanlara ziyan vurmadan, yalnız hərbi hədəfləri dəqiq atəşlə məhv edərək işğal altında olan bütün torpaqlarımızın azad olunması. Bu ruh ilə qətiyyətli mövqe nümayiş etdirən Azərbaycan Ordusu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qələbə tariximizi yazırdı. Uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımız işğaldan azad olunurdu və Azərbaycanın gücü və qüdrəti dünyaya bir daha təqdim edilirdi. 44 günlük müharibə bizim daş yaddaşımıza əbədi olaraq köçdü. Bu tarixi günləri həyəcansız, sevinclə yaşamamaq mümkün deyildi. Dörd il bundan əvvəl ilin bu günündə müharibənin bitməsinə sayılı günlər qalırdı. Artıq bir neçə gündən sonra Qələbə xəbərini eşidəcəydik. Qələbəmiz bir addımlıqda idi. 30 ilə yaxın gözlədiyimiz tarixi Zəfər sevincimizin lap astanasında idik. Cənab Prezident böyük xalqımıza bu Qələbə xəbərini verəcəkdi. Hər gün şəhidlər verirdik. Vətənin mərd, igid övladları Vətən, deyib düşmən üzərinə hücum edirdilər. Xocalı qisası alınırdı, 30 il torpaq nisgili ilə yaşayan insanların qisası alınırdı, mübarizlərin, poladların qısası alınırdı, bir ovuc torpaq nisgili ilə dünyasını dəyişən insanların qisası alınırdı. Qisas qiyamətə qalmadı. Qisas almaq və torpaqların hər qarışı uğrunda mübarizəyə qalxan övladlarımız ölümün gözünə dik baxdılar. Hələ uşaqlıqdan torpaqlarımızdan erməniləri qovmağa və onlara dərs verməyə hazır yetişmişdilər. Gerçəkliyə çevrilən bu günü sanki hər gün xəyallarında qurmuşdurlar. Bir yumruq olaraq birləşməyi bacardıq. Xalqın əzəməti, böyüklüyü bir daha göründü.

### XOCALIDA CANSIZ BƏDƏNLƏR VƏ RUHLAR QALDI

Erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran Xocalı soyqırımını törətməklə öz terrorçu, təcavüzkar simasını ortaya qoydu. 1992-ci il yanvarın 16-da keçirilən "Xüsusi müşavirə" sözügedən planın tərtib edilməsinə xidmət edib. "Xüsusi müşavirə"də "Hoydad" və "ASALA" erməni terror təşkilatlarının nümayəndələri ilə yanaşı, Xankəndidə yerləşdirilmiş ruslara məxsus 366-cı motoatıcı alayın komandiri polkovnik Zarviqorov da iştirak edib. Xocalı soyqırımı ilə ermənilər Xocalının 1992-ci il 26 fevralda yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən, Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

Xocalı qırğınının şahidi olmuş fransız jurnalisti Jan İv Yunet məqaləsində belə yazırdı: "Biz Xocalını müdafiə edənlərin, yüzlərlə dinc sakinlərin – qadınların, uşaqların, qocaların tanınmaz hala salınmış meyitlərini öz gözlərimizlə gördük Ermənilər bizim vertolyotu da atəşə tutduğundan çəkilişi sona çatdıra bilmədik. Amma yuxarıdan gördüklərimiz törədilən vəhşilikləri təsəvvürə gətirməyə kifayət edirdi. Bu, tükürpərdici mənzərə idi. Mən müharibələr, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişdim. Lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qətlə yetirən ermənilər faşistləri də geridə qoymuşdular Növbəti kəndi zəbt edərkən bir erməninin sağ-salamat uşağı götürüb iki yerə böldüyünü gözlərimlə gördüm. Sonra həmin bədənin bir hissəsi ilə ananın sifətinə, başına o qədər döydü ki, övladının al-qanına bulaşmış qadın havalanıb gülməyə başladı". Ermənilər bu qəddar terror akti ilə öz vəhşi xislətlərini bütün dünyaya bəyan etdilər və həmin gün Xocalıda divan tutulmuş cansız bədənlər və ruhlar qaldı.

### BEYNƏLXALQ SƏYAHƏTÇİLƏR KLUBLARININ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA SƏFƏRİ

Müharibədən ötən müddətdə azad olunan ərazilərimizə beynəlxalq səyahətçilərin səfəri çərçivəsində erməni vəhşiliyini bir daha görmüş olurlar. Dünyanın əsas beynəlxalq səyahətçilər klublarının 2020-2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzura 11 səfəri təşkil olunub. Bu səfərlərdə, 50-dən artıq ölkədən 400-dən çox məşhur beynəlxalq səyahətçi iştirak edib. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, eyni zamanda, aparılan nəhəng quruculuq və bərpa işlərinin nümayişi üçün mühüm əhəmiyyət daşıyır.

Belçika vətəndaşı Yves Bouvienin başçılıq etdiyi Böyük Britaniyanın "Piki Reels" klubunun 33 nəfərlik səyyahlar qrupu işğaldan azad olunan torpaqların Ermənistan tərəfindən minalarla çirkəndirilməsi barədə məlumatlandırılıb. Füzuli rayonuna gələn səyyahlar işğaldan azad edilən Kənd Horadiz ərazisində ANAMA tərəfindən aparılan mina təmizləmə işləri ilə tanış olublar. Kənd Horadizin ərazisində əsasən tank əleyhinə minalar basdırılıb. Axtarış zamanı ərazidə partlamamış silah-sursatlar da aşkarlanır. İşğal zamanı ərazilər tank əleyhinə minalarla bərabər, piyada əleyhinə minalarla və digər partlayıcı qurğularla da həddən çox çirkləndirilib və aşkarlanan piyada əleyhinə minalar Ermənistan istehsalıdır.

Xarici səyyahlar erməni işğalı zamanı törədilən vandalizm barədə məlumatlandırılıb, eləcə də azad olunan ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən quruculuq işlərinə şahidlik ediblər.

Rumıniyadan gəlmiş səyyah Qarabağın mənzərəli yerlərini, xüsusilə Ömər aşırımını ziyarət edərək, 800-900 il əvvələ aid tarixi abidələri görüb. Həmçinin yenidənqurma işlərinə, yeni tikilmiş beynəlxalq hava limanına baxıb. "Belə qısa zaman ərzində bu qədər layihənin həyata keçirilməsi və davam etdirilməsi həqiqətən inanılmazdır", - deyə bildirib. Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib.

**Zümrüd BAYRAMOVA**

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Kazanda BRICS üzv ölkələrinin milli statistika xidmətləri rəhbərlərinin 16-cı görüşündə iştirak edir



***2024-sü ilin 28-29 oktyabr tarixlərində Rusiya Federasiyasının Kazan şəhərində BRICS üzv ölkələrinin milli statistika xidmətləri rəhbərlərinin 16-cı görüşü keçirilir. Tədbirdə qonaq qismində ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir. Tədbir statistik istehsalın modernizasiyası, statistika peşəsinə müasir tələblər, Rusiyada və BRICS ölkələrində statistika cəmiyyətinin inkişafına dair sessiyalardan ibarətdir.***




Görüş çərçivəsində rəsmi statistikanın inkişafı ilə bağlı 2030-cu il hədəflərini özündə əks etdirən milli strategiyalar, siyahıyaalmalar, dayanıqlı inkişaf məqsədləri göstəriciləri, irihəcmli məlumatlara dair BMT qlobal platforması, statistik məqsədlər üçün məlumatların yeni toplanma üsulları və statistik nəşrlərin təkmilləşdirilməsi, məlumat ekosistemində yeni inkişaf dövrü



və rəqəmsal həllər, smart statistika, süni intellektdən statistik məqsədlər üçün istifadə, turizm statistikasının təkmilləşdirilməsində irihəcmli və geoməkan məlumatlardan istifadə, metaməlumatlar və yeni statistik məlumat mübadiləsi standartlarının tətbiqi, biznes reyestr, statistik məlumatların keyfiyyətinin təmin olunması üçün keyfiyyətin idarəolunması sistemi, statistik təhsil və bu sahədə prioritetlər və problemlər müzakirə edilir.

Tədbir çərçivəsində BRICS ölkələrində birgə statistik nəşrlərin və əsas statistik göstəricilərin onlayn platformaları haqqında təqdimatların edilməsi də nəzərdə tutulmuşdur.

# Gürcüstandakı seçkilərdən sonrakı GÖZLƏNTİLƏR

***Cənubi Qafqazın ən qaynar nöqtələrindən, daha doğrusu, ölkələrindən biri olan Gürcüstanda parlament seçkilərinə səsvermə, qonşu ölkənin süverenliyi nöqteyi-nəzərdən, hətta referendum belə səviyyəsində görünür. Çünki gürcülər bu seçkilərdə iki ssenari arasında seçim etməklə, özlərinin, öz ölkələrinin gələcəyinə səs vermiş olublar. Bununla belə, hadisələrin fərqli və müxtəlif istiqamətlərdə cərəyan edəcəyi barədə gözləntilər də, proqnozlar da kifayət qədər çoxdur. Ona görə ki, Cənubi Qafqaza burun soxmaq istəyən Qərbin Gürcüstanda öz "barmağı" var.***

**Regionda özünə yer etmək istəyən xarici qüvvələrin, məhz Gürcüstanın öz istədiyi yolla getmə qərarı ilə razılaşacağı qətiyyən inandırıcı deyil**



Hazırda Gürcüstan üçün müharibə ocağına çevrilmə təhlükəsi və ən azından geosiyasi oyunlara alət olma kimi bir gözləntilər də mövcuddur. Qonşu ölkələrlə, region ölkələri ilə qarşılıqlı faydalı əlaqələri olan Gürcüstanı indi Qərb istədiyi istiqamətə yönləndirməyə çalışır. Xüsusən də Qərb və Avropa öz maraqları naminə Gürcüstanda istədiyi ssenarini reallaşdırmaq fikrindədir və bunu kənardan belə görmək çətin deyil. Bu ölkənin qarşılaşa biləcəyi istənilən problemin Qərbi zərrə qədər də narahat etməməsi, hətta maraqlandırmaması fonunda isə gürcülərin hələ nə ilə qarşılaşacağı da müəmmalıdır. Sual doğuran məqamlar isə kifayət qədərdir.

Azərbaycana burun soxmağın mənasız olduğunu və nəticəsiz qaldığını görən Qərb heç Ermənistanla da bağlı ciddi ssenarilər hazırlamır, çünki çoxdandır ki, haylara inanmağın, güvənməyin mənasız olduğu qənaətindədir. Xüsusən də Cənubi Qafqazda heç bir rolu olmayan Ermənistan kimi bir cılız, səfalət içərisində olan bir ölkə ilə bağlı hansısa resurslardan istifadə etməyin lazımsız olmasını düşünən, Azərbaycandan da "əli üzülən" Qərb indi diqqətini məhz Gürcüstana yönəldib. Bu baxımdan da bütün "gücünü", resurslarını həmin ölkəyə sərf edəcəyi gözləniləndir.

Regionda özünə yer etmək istəyən xarici qüvvələrin Gürcüstanı öz istədiyi yolla getməsi barədə qərarına razılaşacağı qətiyyən inandırıcı görünmür. Bu baxımdan da hələ çox oyunları, bir sıra çirkin ssenarilərin reallaşdırılması üçün ciddi cəhdlər edilməsini müşahidə edə bilərik. Çox güman ki, əvvəlcədən hazırlanmış ssenari üzrə bir çox oyunlar seçki məntəqələri bağlandıqdan, yeni süçki başa çatdıqdan sonra başlaya bilər. Onu da təkzib etmək olmaz ki, həmin ssenarilər səsvermənin nəticəsindən asılı olmayaraq, Qərb tərəfindən artıq əvvəlcədən yazılıb. Gürcüstanda hazırkı müxalifətin fəaliyyətindən və ələlxüsus da iddialarından belə məlum olur ki, həmin ölkənin müxalif qüvvələri mövcud hakimiyyətin qələbəsini qətiyyən qəbul etmək, həzm etmək belə istəmir. Bu isə onu göstərir ki, Gürcüstan müxalifəti xeyli əvvəldən artıq Qərbdən istənilən istiqamətdə kifayət qədər dəstək olacağı barədə vəd alıb. Deməli, məsələ heç də göründüyü qədər sadə və bəsit deyil, əksinə, kifayət qədər mürəkkəbdir və yenə də həmin ölkədə Qərbin "barmağı" görünür. Ona görə də gözləntilər heç də gürcülər üçün arzuolunan olmaya bilər. Hətta gözlənilməz hadisələr belə ola bilər və əvvəlcədən bununla bağlı nə isə söyləmək belə mümkün deyil.

### Vətəndaş müharibəsi təhlükəsi yaranacağı təqdirdə Gürcüstanın mövcud və legitim hakimiyyəti səs toplasa belə hakimiyyəti müxalifətə təhvil verə bilər

Ola bilsin ki, ölkə daxilində vətəndaş müharibəsi təhlükəsi belə yarana bilər. Bunun fonunda da, Gürcüstan hakimiyyəti seçkilərdə qalib gəlsə belə, məhz ölkənin idarəetməsini rəqiblərinə, ölkə müxalifətinə ötürə, təhvil verə də bilər. Daha doğrusu, xarici qüvvələrin, Qərbin layihəsi olan müxalifətə hakimiyyət kürsüsünün məcburi şəkildə güzəşt olunması da mümkündür. Çünki Gürcüstan kimi bir ölkədə qarşıdurmanın olub-olmayacağı, hətta təhlükəsi belə Qərbi maraqlandırmaya bilər, amma öz doğma vətəni olduğu üçün həmin ölkə hakimiyyəti qətiyyən buna həssas yanaşmaya bilməz. Belə olan halda isə, hakimiyyəti ələ alan müxalifət qüvvələri hazırkı hakimiyyətdə təmsil olunanları heç parlamentə də qətiyyən buraxan kimi görsənmir. Görünən odur ki, Gürcüstan müxalifəti həmin ölkənin hazırkı hakimiyyətini ümumiyyətlə siyasi səhnədən qovmaq niyyətindədir. Hazırkı səsvermədən sonra bir il ərzində yeni parlament seçkilərinin keçiriləcəyini müxalifətin bəyan etməsi də bu baxımdan təsadüfi sayılmır və sadalananları təsdiq edir. Bu ondan xəbər verir ki, Gürcüstan müxalifəti ümumiyyətlə, ölkə hakimiyyətini siyasi səhnədə görmək belə istəmir. Daha dəqiq desək, Gürcüstan müxalifətinin söykəndiyi qüvvələrin, məhz xarici güclərin, Qərb dövlətlərinin hazırkı hakimiyyətlə bağlı qərarları belədir və bu qərara da müxalifətçilərin qarşı çıxacağı heç ağıla belə gələn deyil. Çünki həmin qüvvələr, xarici güclər onlar üçün, gürcü müxalifətçiləri üçün donordurlar və bütün təminatı da özləri edirlər. Qrant ayıran, gürcü müxalifətmiləri vəsaitlərlə təmin edən Qərbin onlardan istədiyini tələb erdəcəyi gözləniləndir.

Belə görünür ki, Gürcüstan müxalifəti ölkəni birmənalı şəkildə kənar nəzarət altında idarə etməyi planlaşdırır. Daha doğrusu, həmin ölkənin müxalifəti qətiyyən müstəqillik və suverenliyi hesaba belə almır və onu xarici qüvvələrin ayaqları altına atmaq niyyətindədir. Hər halda, ödəniş edən musiqini də sifariş etdiyi kimi, Gürcüstan müxalifətinə də vəsaitlər ödənildikdən sonra lazımi "sifarişlər" də olub. Həmin sifarişlərin fonunda da həmin ölkənin müxalifət qüvvələri tapşırılan, daha doğrusu ssenarisi belə əvvəldən yazılan və göstərilən hərəkətləri etməklə "vəzifələndiriliblər". Gürcüstan müxalifəti buna qarşı qətiyyən iradə belə nümayiş etdirə bilməyəcək. Deməli, Gürcüstan müxalifətçiləri ağılsız və hüquqsuz, eləcə də qanunsuz şəkildə ortaya atılarlarsa, çıxılmaz bir vəziyyət yarana bilər və Qərbə xidmət edən qüvvələrdən fərqli olaraq, Gürcüstanın mövcud hakimiyyəti qarşıdurmanın olmasına rəvac verməmək üçün istənilən güzəştə gedə, hakimiyyət kürsüsünü belə müxalifətə "təhvil" verə bilər.

### "Saxtalaşdırılma mövzusu" ilə bağlı ssenari əvvəlcədən "yazılıb" Qərbin oyunlarının qaydaları öncədən cızılıb və planlar da artıq çoxdan hazırdır

Qonşu ölkə müxalifətinin güzəştə getməsi, hansısa kompromisslər barədə düşünməsi belə qətiyyən inandırıcı deyil. Çünki həmin ölkə müxalifəti daxili qarışıqlıqları, gözlənilən xaosu hesaba belə almır. Əksinə, elə məhz xaos yaratmaq üçün xaricdən qrant da alır. Deməli, nəticədə hazırkı, mövcud hakimiyyət özü güzəştə getməli, belə bir məcburiyyət qarşısında qalmalı olur. Doğrudur, Gürcüstanın mövcud hakimiyyətində təmsil olunanlar heç də hansısa qüvvələrin təsirinə məruz qalmaq və başqa yolla getməyi məqbul hesab etmirlər, amma reallıqları görməmələri də mümkün deyil. Reallıq isə ondan ibarətdir ki, Gürcüstanda müxalifət liberal diktatura və hansısa kənar nəzarətin olmasını planlaşdırır. Hazırkı hakimiyyəti də gürcü müxalifətçilər "Rusiyayönlü" kimi damğalamaqdadırlar və görünən odur ki, bu xəmir hələ çox su apara bilər. Çox güman ki, belə bir vəziyyəti də Gürcüstan hakimiyyəti nəinki görür, hətta nəzərə almaq, mövcud durumla hesablaşmaq məcburiyyətindədir.

Kompromislərin olacağına zərrə qədər də ümid yoxdur. Bir halda ki, Gürcüstanın müxalifət qüvvələri qətiyyən güzəşt haqqında düşünmürlər, əksinə, ancaq iddialı, provokativ tərzdə davranırlar, deməli, onların hansısa reallıqla, daha dəqiq desək, seçkilərin demokratik keçirilməsi, xalqın öz seçimini etməsi, legitim hakimiyyətin olması kimi reallıqlarla barışacağı barədə düşünməyə belə əsas qalmır.

Yəni, Gürcüstanın müxalifət qüvvələti tamamilə dağıdıcı, radikal mövqe sərgiləməkdən zərrə qədər də çəkinmirlər. Bu radikal mövqelərinin nə ilə nəticələnəcəyini də nəzərə belə almırlar. Ancaq "buyruq qulu" kimi davranmalı olduqları qənaətindədirlər və bunun ölkələri üçün necə faciəvi nəticələr verəcəyini təsəvvür belə etmək haqqında da düşünmürlər. Lakin Gürcüstanın hazırkı hakimiyyəti ölkənin coğrafi mövqeyini və milli maraqlarını, eləcə də üstünlüklərini nəzərə alaraq, suveren dövlətin müstəqil siyasətin davam etdirmək istəsə də, qarşıdurmalar olmasın deyə bəzi məqamlarla barışmaq məcburiyyətində qala bilər. Nəzərə alsaq ki, həm Birinci, həm də İkinci Dünya Müharibələrinin səbəbkarı, həmin müharibələri doğuran məhz logistika və kommunikasiya baxımından ərazilərə nəzarət uğrunda mübarizə olub, deməli, bu məqamda Gürcüstanın elə Üçüncü Dünya Müharibəsinin ocağına çevrilmə etimalı da qətiyyən diqqətdən yayınmır. Hətta bunun riskinin çox yüksək olması fonunda Gürcüstanın hazırkı hakimiyyəti həmin ölkənin müxalifətindən fərqli olaraq, mühafizəkar mövqedədir və buna görə də gözləntilər eyni deyil və tamamilə fərqlidir.

İndiki durumda Gürcüstanda müxalifətin hakimiyyəti ələ keçirmək üçün zorakılıq ssenarisinə belə əl atacağı ilə bağlı ciddi qorxular var. Belə bir ssenarinin baş verməehtimalının yüksək olduğunu artıq bütün dünya ictimaiyyəti belə hiss etməkdədir. Əgər seçkidən öncə də bununla əlaqədar müvafiq "xəbərdarlıqlar" olubsa və açıq şəkildə səsləndirilibsə, deməli, etirazların gözlənilməsi tamamilə məntiqidir. Seçkidən də hələ bir qədər əvvəl keçiriləcək seçkinin saxtalaşdırılacağı bildirilmişdisə, deməli, etirazlarla bağlı artıq çoxdan "hazırlıqlar" gedib. Belə çıxır ki, Gürcüstanda seçkilərin "saxtalaşdırılma mövzusu" ilə bağlı ssenari əvvəlcədən "yazılıb" və bunun məntiqi olmaması fonunda işin nə yerdə olduğu bəlli olur. Bəlli olur ki, Qərbin oynamaq istədiyi oyunların qaydaları da öncədən cızılıb və planlar artıq çoxdan hazırdır. Müxalifətin öz tərəfdarlarını küçələrə çıxmağa çağıracağı da, legitim hökuməti devirmək üçün bütün vasitələrə bundan sonra əl atacağı da gözləniləndir. Təəssüflə qeyd etmək istərdik ki, qonşu ölkədə siyasi qarşıdurmanı silahlı qarşıdurmaya çevirməyə çalışanlar da ola bilər. Daha aydın və qısa şəkildə desək, Gürcüstanda vətəndaş müharibəsinin olmasını istəyənlər heç də az deyilmiş və indi onların müxalifət, yaxud, nə isə başqa adla adlandırılmasınının zərrə qədər fərqi yoxdur. Bunun heç fərqində belə olan da tapılmaz, çünki müzakirə mövzususu hər kəsin qəbul etdiyi şəkildə yanaşma da tələb edir...

***İnam Hacıyev***

# TÜRKİYƏ: Böyük Zəfərdən Böyük Cümhuriyyətə



***Əslində Türkiyə 29 oktyabr 1923-cü ildə Cümhuriyyət elan edilib. 1925-ci ildən isə bu, Türkiyənin bütün şəhərlərində, Şimali Kipr Türk Respublikasında (KKTC) və dünyanın bütün ölkələrindəki Türkiyə səfirliklərində, eləcə də Türkiyə ilə dost ölkələrdə böyük bayram təntənəsi ilə qeyd edilir.***





Altı əsr ərzində çoxmillətli türk-islam monarxiyası şəklində həyat sürən Türkiyə dövləti TBMM-nin 29 oktyabr tarixli qərarı ilə həyatına respublika kimi davam etmişdir. Cümhuriyyətin elanından sonra ilk Prezident seçilən Mustafa Kamal Paşa Türkiyənin Osmanlı İmperiyasından yeni siyasi rejimə faktiki keçidini şərtləndirən genişmiqyaslı islahatların banisidir.

Bəs cümhuriyyət necə elan edildi? Bunun üçün Türkiyə hansı yollardan keçməli oldu? Təbii ki, tarixin qızıl səhifələrini təşkil edən Böyük Hücum və Baş Komandan döyüşü adlandırılan döyüşlə, Böyük Zəfərə gedən mübarizə ilə. Cümhuriyyətin elan edilməsinin 101-ci ildönümündə, Türkiyənin taleyini dəyişən bu əlamətdar gündə həmin döyüşü xatırlamaq yerinə düşər.

## Türk Qurtuluş Savaşının son mərhələsi və zirvəsi

Böyük Hücum və Baş Komandan Döyüşü Türk Qurtuluş Savaşının son mərhələsi olaraq adlandırılır. 1922-ci ilin avqust ayının 26-30 tarixlərində olan döyüşlər Türkiyə tarixinə qızıl hərflərlə yazıldı və artıq 102 ildir ki, türk xalqı bu Böyük Zəfərin qüruru ilə yaşayır. Onlar bu qüruru ana südü qədər haqq edir. Çünki bu Zəfər böyük qəhrəmanlıqlar və itkilər hesabına əldə olunub. Düşmən birdəfəlik türk torpaqlarından qovulub.

Sakarya döyüşündən sonra ictimaiyyət və Türkiyə Böyük Millət Məclisi yeni hücum üçün səbirsizliklə əmr gözləyirdi. Əldə edilən qələbələr fonunda Mustafa Kamal Paşa 6 mart 1922-ci ildə Böyük Millət Məclisinin gizli iclasında narahat olanlara dedi: "Ordumuzun qərarı hücum etməkdir. Amma biz bu hücumu təxirə salırıq. Səbəb odur ki, hazırlıqlarımızı tam başa çatdırmaq üçün bir az daha vaxt lazımdır. Yarı hazırlıq və yarı tədbirlə hücum, heç hücum etməməkdən qat-qat pisdir". Bu sözlərlə o, bir tərəfdən onların beyinlərindəki şübhəni aradan qaldırmağa çalışır, digər tərəfdən də ordunu son qələbəni təmin edəcək hücuma hazırlayırdı.

1922-ci il iyunun ortalarında baş komandan Qazi Mustafa Kamal paşa hücuma keçmək qərarına gəldi. Əsas məqsəd dağıdıcı döyüş aparmaq, düşməni tez və qəti nəticə ilə vurmaq idi. Bu hücumu taclandıran Böyük Hücum və Baş Komandan Döyüşü Türk Qurtuluş Savaşının son mərhələsini və zirvəsini təşkil etdi. Mustafa Kamal Paşa 3 il 4 ay müddətində türk millətini və ordusunu addım-addım hədəfə çatdırdı.

## Böyük Hücum planı

Yunan ordusu Qərbi Anadolunu türk ordusuna qarşı müdafiə etməyi planlaşdırırdı; O, təxminən bir il ərzində Menderes çayının ardınca Gəmlik körfəzindən Biləcik, Əskişəhər və Afyonun şərqinə və Egey dənizinə doğru müdafiə xəttini möhkəmləndirmişdi. Xüsusilə Əskişəhər və Afyon bölgələri həm istehkam, həm də qoşun sayı baxımından daha güclü saxlanılmış, hətta Afyonun cənub-qərbindəki bölgədə bir-birinin arxasında beş müdafiə xətti təşkil edilmişdir.

Hazırlanmış Türkiyə hücum planına görə 1-ci Ordu qüvvələri Afyonun cənub-qərbindən şimala doğru hücuma keçərkən, Afyonun şərq və şimalındakı 2-ci Ordu qüvvələri düşmənin qüvvələrini 1-ci Ordu bölgəsinə köçürməsinin qarşısını alacaq, qəti nəticə əldə etmək üçün Döğer bölgəsində düşmən ehtiyatlarını öz üzərinə çəkməyə çalışacaqdı. Süvari Korpusu Ahır dağlarını aşaraq düşmənin cinahlarına və arxasına hücuma keçəcək və bununla da düşmənin İzmirlə teleqraf və dəmir yolu əlaqəsini kəsəcəkdi. Yunan ordusunun bu basqın prinsipi ilə məhv edilməsi planlaşdırılırdı.

## Kocatepe, Afyonkarahisar, 26 avqust 1922

İki ordu say və tüfəng baxımından təxminən bərabər olsa da, yunan ordusu pulemyot, artilleriya, təyyarə və xüsusilə də motorlu nəqliyyat vasitələri baxımından üstünlüyə malik idi.

Yalnız süvari (qılınc) baxımından türk ordusu üstünlüyə malik idi. Hücumda, xüsusən də təqib əməliyyatında tankların və avtomobillərin olmadığı o dövrdə döyüşlərdə süvarilərin rolunun çox böyük olduğu danılmaz fakt idi.

Mustafa Kamal Paşa 19 avqust 1922-ci ildə Ankaradan Akşehirə getdi və 26 avqust 1922-ci il şənbə günü səhər düşmən üzərinə hücum əmri verdi. Həmin gün səhər saatlarında Baş Komandan Mustafa Kamal Paşa, Baş Qərargah rəisi Fevzi Paşa və Qərb Cəbhəsi Komandiri İsmət Paşa ilə birlikdə döyüşə komandanlıq etmək üçün Kocatəpədəki yerini aldı. Böyük Hücum burada başladı. Səhər saat 04.30-da artilleriya tərəfindən təqib atəşi ilə başlayan əməliyyat saat 05.00-da mühüm nöqtələrə intensiv artilleriya atəşi ilə davam edirdi.

Səhər saat 06.00-da Tınaztəpəyə zərbə məsafəsinə gələn piyada məftil çəpərləri aşaraq yunan əsgərlərinə süngü ilə hücum etdi və ərazini düşməndən təmizlədi, daha sonra Tınaztəpəni ələ keçirdi. Bundan sonra saat 09.00-da Belentəpə, sonra isə Kalecik-Sivrisi düşməndən təmizləndi.

Hücumun ilk günündə ağırlıq mərkəzində olan 1-ci Ordu Korpusu Böyük Kaleciktəpədən Çiğiltəpəyə qədər on beş kilometrlik bölgədə düşmənin ilk sıra mövqelərini ələ keçirdi. 5-ci Süvari Korpusu düşmənin arxasındakı daşıma silahlarına uğurlu hücumlar etdi, 2-ci Ordu isə cəbhədə aşkarlama missiyasını fasiləsiz davam etdirdi.

## Afyon Zəfəri

Avqustun 27-si bazar günü günəşin batması ilə türk ordusu yenidən bütün cəbhələrdə hücuma keçdi. Bu hücumlar daha çox süngü hücumları və fövqəlbəşər səylərlə həyata keçirildi. Afyon şanlı və şərəfli qurtuluş müjdəsinə çevrildi və Baş Komandanlıq Qərargahı və Qərb Cəbhəsi Komandanlığı Qərargahı Afyona köçürüldü.

Böyük Hücum səhər saat 05.30-da artilleriya atəşi ilə başladı.

Avqustun 28-də bazar ertəsi və 29 avqust çərşənbə axşamı keçirilən uğurlu hücum əməliyyatları düşmənin 5-ci diviziyasının mühasirəyə alınması ilə nəticələndi. Avqustun 29-na keçən gecə yaranmış vəziyyəti dəyərləndirən komandirlər təxirəsalınmaz tədbirlər görüb döyüşü tez başa vurmağı zəruri hesab etdilər. Düşmənin geri çəkilmə yollarını kəsib onu döyüşə məcbur etmək, tam təslim olmasını təmin etmək qərarına gəldilər. Qərar sürətli şəkildə həyata keçirildi.





## "Ordular, ilk hədəfiniz Aralıq dənizi"

30 avqust 1922-ci il çərşənbə günü keçirilən hücum əməliyyatı türk ordusunun qəti qələbəsi ilə nəticələndi. Böyük Hücumun son mərhələsi türk hərb tarixinə Baş Komandan Döyüşü kimi düşdü.

Həmin tarixdə Baş Komandanlıq meydanı döyüşünün sonunda düşmən ordusunun böyük hissəsi dörd tərəfdən mühasirəyə alınmış Qazi Mustafa Kamal Paşanın atəş xətləri arasında şəxsən Zəfərtəpədən komandanlıq etdiyi müharibədə tamamilə məhv edilmiş və ya əsir düşmüşdür. Anadoludakı yunan qüvvələrinin yarısı məhv edildi və ya əsir götürüldü, qalan hissəsi isə üç qrup halında geri çəkildi. Bu vəziyyət qarşısında Çalköydəki xaraba bir evin həyətində Qazi Mustafa Kamal Paşa "Ordular, ilk hədəfiniz Aralıq dənizi" tarixi mesajı ilə türk ordusunu yunan ordusunun arxasınca göndərdi. "İrəli!" əmrini verdi.

## Türkiyənin müstəqilliyini dünya tanıdı

1922-ci il sentyabrın 1-də türk ordusunun təqib əməliyyatı başladı. Döyüşlərdən sağ çıxan yunanlar İzmir, Dikili və Mudanyaya doğru qaçmağa başladılar. Bu döyüş nəticəsində türk ordusu sentyabrın 9-da səhər saatlarında İzmirə daxil oldu. Sabuncubelidən keçən 2-ci Süvari Diviziyası Mersinli yolu ilə İzmirə doğru hərəkət edərkən solunda olan 1-ci Diviziya Kadife Kale istiqamətində irəlilədi. Bu diviziyanın 2-ci alayı Tuzluoğlu fabrikindən keçərək Kordonboyuya çatdı. Kapitan Şərəf bəy möhtəşəm türk bayrağını Hökumət imarətində, 5-ci Süvari Diviziyamızın rəisi kapitan Zeki bəy Komandirlikdə, 4-cü Alay komandiri Reşat bəy Kadife qalasında dalğalandırdılar.



9 sentyabrda İzmir, 11 sentyabrda Bursa, 18 sentyabrda Qərbi Anadolu düşmən işğalından azad edildi. 11 oktyabr 1922-ci ildə imzalanan Mudanya atəşkəs müqaviləsi ilə Şərqi Trakya silahlı qarşıdurma olmadan yunan əsgərlərindən təmizləndi.

24 iyul 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsi ilə Türkiyənin müstəqilliyi bütün dünya tərəfindən qəbul edildi.

Türk millətinin vətənpərvərliyi, sarsılmaz əzmkarlığı və iradəsi nəticəsində meydana çıxan bu Zəfərlə nəinki vətəni düşmən tapdağından xilas oldu, həm də müstəqil Türkiyə Cümhuriyyətinin möhkəm təməllər üzərində qurulması prosesi başladı. Millətin iradəsi və suverenliyi Ulu Öndər Atatürkün rəhbərliyi ilə başlanmış və 29 oktyabr 1923-cü ildə Cümhuriyyət elan edilmişdir.

Böyük Zəfərdən iki il sonra Mustafa Kamal Paşa 30 avqust 1924-cü ildə Baş Komandanlıq Döyüşünə rəhbərlik etdiyi və idarə etdiyi Zəfərtəpədə Böyük Zəfərin əhəmiyyətini belə ifadə etdi. "...Şübhə olmamalıdır ki, yeni türk dövlətinin, gənc Türkiyə Cümhuriyyətinin əsasları burada qoyulmuşdur. Onun əbədi həyatı burada taclandı. Bu meydanda axan türk qanı, bu səmada uçuşan şəhidlərin ruhu dövlətimizin, respublikamızın əbədi keşiyindədir..."

Mustafa Kamal Atatürkün böyük uzaqgörənliyi ilə qurulan cümhuriyyət təkcə milli suverenliyə əsaslanan bir idarə forması deyil, həm də hərtərəfli bir maarifləndirmə və modernləşmə təşəbbüsüdür. Cümhuriyyətlə həyata keçirilən inqilablar türk millətinin üzünə müasir həyatın qapılarını açdı. Bu, Türkiyəyə dünyəvi və demokratik respublikaya sahib olmaq şərəfini verdi.

## Cümhuriyyət bayramın mübarək, Türkiyə!

30 Avqust günü ilk dəfə 1924-cü ildə Dumlupınarda, Çal Kəndi yaxınlarında Prezident Mustafa Kamalın qatıldığı bir mərasimlə "Baş Komandir Zəfəri" adı ilə qeyd olunmuşdur. Qələbə Gününü qeyd etmək üçün iki il gözləmənin ən əhəmiyyətli səbəbi 1923-ci ilin Yeni Türkiyə baxımından həm milli, həm də beynəlxalq sahədə sıxlığın yüksək mərhələdə olması idi.

Bu möhtəşəm tarix Türkiyədə 1926-cı ildən etibarən Zəfər Günü olaraq qeyd olunmaqdadır.

Cümhuriyyət bayramın mübarək, Türkiyə! Bu şanlı tarix türk millətinin qeyrət, namus, ərlik dastanıdır. Bu dastan türk övladlarının qanı ilə yazılıb. Bütün dünyaya nümunə olan bu döyüş, bu dastan türk xalqlarının hər birinin qürur dastanıdır. Çünki bir qarış torpağın düşmənə verilməməsi, torpaq, yurd sevdası hər bir türkə məxsus keyfiyyətdir: kişilik, qeyrət, şərəf məsələsidir.

***Mətanət Məmmədova***



**Elçin Bayramlı**

# Maaş-pensiya artımı bahalaşmanı kompensasiya edəcəkmi?

2024-cü ildə inflyasiyanın davam etməsi- bir çox məhsulların və xidmətlərin qiymətinin bahalaşması əməkhaqqı və pensiyaların da artırılmasını şərtləndirir. Bununla bağlı artıq anons verilib və gələn ilin yanvarından maaş və pensiyalarda artımların olacağı gözlənilir.

Rəsmi məlumatlara görə, cari ildə inflyasiya 3,8 faiz olub, hökumət illik göstəricinin 5 faizi keçməyəcəyini bəyan etmişdi. Müstəqil ekspertlər isə mövsümi cari inflyasiyanın ən azı 10 faiz, illik əsasda isə 15 faiz həddində olacağını deyirlər. 2025-ci ilin dövlət büdcəsində sosial xərclərin 14 faizə yaxın artırılması nəzərdə tutulub. Bu 5 milyard manat vəsait deməkdir.

Bu hesabla maaş və pensiyaların 15 faiz artırılması vacibdir, lakin əksər ekspertlər maksimum 10 artırılacağını ehtimal edirlər. Nəzərə alsaq ki, 2024-cü ildə maaş və pensiyalarda artımlar edilməyib, bu müddətdə isə məhsul və xidmətlərin qiymətində bahalaşmalar baş verib, o halda artımın ən azı 15 faiz olması vacibdir.

Real inflyasiyanı nəzərə alsaq, minimum əməkhaqqının 345 manatdan ən azı 400 manata qaldırılması məcburidir. Artımlar inflyasiyanı indeksasiya etməlidir ki, əhalinin sosial vəziyyəti ağırlaşmasın. Daha yaxşı olardı ki, minimum əməkhaqqı 450 manata çatdırılsın.

Rəsmi məlumata görə, hazırda ölkə üzrə orta aylıq əməkhaqqı 900 manatı keçib. Median əməkhaqqı haqda məlumatlar rəsmi açıqlanmasada, müstəqil ekspertlər tərəfindən bu, 5-6 yüz manat civarında qiymətləndirir. Bu isə, son 2 ildə baş vermiş bahalaşmalar şəraitində çox aşağı məbləğdir.

Eləcə də minimum pensiya məbləği hazırda 280 manatdır, onun da 350 manatadək artırılması vacibdir. Çünki, real inflyasiya bu məbləğin dəyərini xeyli aşağı salıb.

Adambaşına yaşayış minimumu 270 manat təşkil edir. Lakin əksər ailələrin adambaşına gəliri bu məbləğdən aşağıdır. Bu səbəbdən həm minimum əməkhaqqının və minimum pensiyaların, həm də yaşayış minimumunun artırılması aztəminatlı ailələrin sosial müdafiəsi üçün çox vacibdir.

Ənənəvi olaraq bəzi işbazlar tərəfindən bu artımlardan sonra gündəlik məhsulların qiymətlərinin süni bahalaşdırılması tendensiyası müşahidə olunur ki, bu da son nəticədə inflyasiyanı artırır, edilən artımları səmərəsiz hala gətirir. Ölkə prezidenti bir neçə dəfə belə hallara qarşı sərt reaksiya verib və süni bahalaşma halları aradan qaldırılıb.

Büdcədən maliyyəşənlərin maaş və pensiyaları qaldırılandan sonra baş verən bahalaşma meyilləri təkcə onlara deyil, özəl və ictimai sektorda çalışan və maaşları artmayan vətəndaşlara da zərər vurur. Çünki, maaşı artımları dövlət büdcəsindən əməkhaqqı alanlara aid olur, özəl şirkətlərdə işləyənlərin maaşları artmır. Buna görə də, artımlardan əlavə, həm də bahalaşmanın qarşısı alınmalıdır.

Süni bahalaşmanın qarşısını almaq üçün inzibati metodların tətbiqi də mümkündür, lakin burada başqa faktorlar da var ki, ilk növbədə onlara toxunmalıyıq. Bazarda süni proseslərin qarşısını almaq üçün rəqabət mühiti təmin olunmalıdır.

Məhsulunu bazara çıxaran şəxs və ya şirkət bunun üçün verdiyi rüşvətləri məhsulun üzərinə əlavə edir və qiymətlər süni şəkildə artır. Qiymətlər bazar stabilləşdirməlidir, tələb-təklif münasibətləri əsas rol oynamalıdır. İnhisarçılıq, korrupsiya halları aradan qaldırılmalıdır.

İnzibati təzyiq vasitələri müvəqqətidir, amma bunun da təsiri ola bilər. İnzibati təzyiq ona yönəlməlidir ki, sahibkarların, məşhul istehsalçılarının əlavə xərcləri yaranmasın. Əks halda, qiymətlər süni şəkildə artacaq. Ölkə başçısı dəfələrlə bildirib ki, sahibkarların fəaliyyətinə qeyri-qanuni müdaxilələr, təzyiqlər aradan qaldırılmalıdır.

Qiymət və qiymətləndirmə məsələsini tamamilə bazarın öhdəsinə buraxmaq da düzgün deyil. Çünki burada təkcə iqtisadi problem deyil, ictimai, siyasi, sosial və mənəvi məsələlər də birləşir. Belə ki, bəzi qiymətlərin dövlət tərəfindən tənzimlənməsi həmin məhsulların və xidmətlərin ucuzlaşması ilə nəticələnə bilər ki, bu da son nəticədə əhalinin həyat səviyyəsinə müsbət təsir edər.

Dünyanın ən yüksək inkişaf etmiş ölkələrində belə, qiymətlərin müəyyən sərbəstliyi və sahibkarın qiymət sahəsindəki sərbəstliyi ilə yanaşı, dövlətin tənzimləyici siyasəti də mühüm yer tutur. Məsələn, hətta ABŞ kimi klassik bazar iqtisadiyyatına malik olan ölkədə gündəlik tələbat məhsullarından tutmuş strateji məhsullara qədər 900-ə yaxın adda məhsul və xidmətin qiyməti dövlətin nəzarətindədir. Azərbaycanda da belə bir sistem tətbiq olunmalıdır.

# Körpələrin ölümünə səbəb olan məqamlar BƏLLİ OLDU

***"Uşaq ölümlərində azalma dinamikası müşahidə olunmalıdır. Çünki qlobal tendensiyada uşaq ölümü istiqamətində xeyli azalma müşahidə olunur. Azərbaycanda isə uşaq ölümü ilə bağlı artım dinamikasının müşahidə olunması, hələ də ölkəmizin uşaq ölümlərinin qarşısının alınması ilə bağlı arzuolunan hədəfə çata bilmədiyini göstərir. Bu səhiyyə keyfiyyəti ilə bağlı olan məsələdir". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib.***





O bildirib ki, səhiyyə menecmenti və tibbi personalın tələb olunan səviyyədə hazırlığı və ölkə üzrə düzgün paylanması çox vacib məsələdir: "Statistikaya nəzər yetirdikdə ölkə üzrə 100 minə yaxın tibbi personalın olduğunu görərik. Lakin cəmi 32 min ixtisaslaşmış həkim var. Həmçinin uşaq həkimlərinin də ölkə üzrə paylanması məsələsinə xüsusi diqqət ayrılmalıdır.

Eyni zamanda əhalinin qidalanması, keyfiyyətli tibbi xidmət alması, əhalinin səhiyyə savadlılığı kimi məsələlərə də diqqət ayrılmalıdır. Bir sıra hallarda uşaq ölümlərinin səbəbi kimi irsi qan xəstəlikləri yer alır. Baxmayaraq ki, irsi qan xəstəliklərinin aradan qaldırılması üçün ölkə rəhbərliyi tərəfindən düzgün olaraq nikaha girməzdən öncə qan testi tələb olunur. Amma bununla belə cəmiyyətin səhiyyə savadlılığının artmasına nail olmalıyıq. Çünki bəzi xəstəliklər məhz ana vasitəsilə uşağa keçir və uşaq immunitet qazana bilmədiyi üçün 5 yaşına kimi dünyasını dəyişir. Bu birbaşa olaraq səhiyyə savadlılığının olmaması və zamanın proflaktik tədbirlər görməməyin ucbatından baş verir.

Eyni zamanda valideyn məhsuliyyətsizliyi məsələsi də uşaq ölümlərində özünü göstərən amildir".Məsələ ilə bağlı pediatr Sevda Novruzlu fikirlərini bölüşüb: "Uşaq ölümləri müxtəlif səbəblərdən baş verir. İlk növbədə anadangəlmə qüsurlar buna səbəb ola bilir. Belə ki, uşaq doğulan zaman müxtəlif ürək qüsurlarının ortaya çıxması ölümə aparır. Digər tərəfdən hamiləlik zamanı ananın keçirdiyi müxtəlif hüceyrədaxili infeksiyalar yeni doğulan körpənin ölümünə səbəb ola bilər. Həmçinin virus infeksiyalarının ağırlaşmaları da uşaq ölümünün səbəbləri sırasında yer tutur. Eyni zamanda respublika üzrə tətbiq olunan peyvənd təqviminə uymaq lazımdır. Lakin bəzi valideynlər peyvənd təqvimindən imtina edirlər, bu isə uşağın həmin xəstəlikləri ağır keçirməsi ilə nəticələnir. Buna görə də peyvənd təqviminə xüsusi diqqət etmək çox vacibdir".

***Səbinə Hüseynli***

# "Nar" inklüziv cəmiyyətə dəstək olmağa davam edir




Bir il ərzində davam edəcək "Bütün Vücudlar Danışır" layihəsi 800-dən çox iştirakçıya xidmət göstərməyi planlaşdırır. Layihədə fərqli yaş qruplarından əlilliyi olan və olmayan şəxslər, qazilər, aztəminatlı ailələr və internat məktəblərinin şagirdləri iştirak edəcək.Layihənin əsas məqsədi, cəmiyyətin həssas və qeyri-həssas qruplarını bir araya gətirib onların fiziki və emosional rifahını yaxşılaşdırmaq, sosial bacarıqlarını inkişaf etdirmək və yeni dostluqlar yaratmaqdır. Layihədə iştirak etmək istəyənlər bu linkə keçid edərək qeydiyyat formasını doldura bilərlər.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

***Sərfəliliklə yanaşı, sosial layihələrə də böyük önəm verən "Nar" "Bütün Vücudlar Danışır" sosial-mədəni layihəsini dəstəkləyir. "DanceAbility" Azərbaycan sosial müəssisəsi tərəfindən təşkil edilən bu layihə "Nar"ın dəstəyi ilə ESG (Ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə) prinsiplərinə uyğun olaraq, inklüziv cəmiyyətin inkişafını təşviq edir. Bu təşəbbüslə "Nar" əlilliklə bağlı stereotipləri aradan qaldırır və inklüziv cəmiyyətin qurulmasına öz töhfəsini verir.***






Mətanət Məmmədova

# "Halloween"ə restoran bağladır, pul xərcləyirik...

***Əsasən oktyabrın 31-nə təsadüf edən və bizimlə heç bir əlaqəsi olmayan "Halloween" bayramını qeyd etməkdəyik. Bunu ötən bazar günü "Park Bulvar Mall"da qarşılaşdığım böyük təntənə əsasında söyləyirəm. Burada hər addımda bayramın ruhuna uyğun rəngbərəng paltarlar geyindirilən onlarla uşaqla qarşılaşmaq mümkün idi.***

Maraqlıdır, görəsən, valideynlər bizə aidiyyatı olmayan bu bayram haqqında məlumat verməsələr, uşaqlar haradan öyrənmiş olarlar? Deyərsiniz ki, indi internet əsridir, uşaqların da ki, hər birinin əlində telefon var, oradan öyrənirlər. Yaxşı, lap telefon vasitəsilə öyrəndilər. Bəs valideynlərinə bu bayram haqqında danışanda valideynlər onlara nə deyir? Görəsən, "bala, bunun bizə aidiyyatı yoxdur axı", yoxsa "hə, nə yaxşı, gərək bunu qeyd edək", deyirlər?

Mən belə bir qənaətə gəlirəm ki, valideynlər uşaqların bu istəklərini cavabsız qoymur ki, dünən özləri də onlarla birlikdə bu bayramı qeyd etmək üçün evdən bayıra çıxmışdılar. Və "Halloween"in Bakıda hər il daha təntənəli qeyd olunması da dediklərimi təsdiqləyir.

"Park Bulvar Mall"da yerləşən "Zəfəran" adlı restoran var. Biz oraya tez-tez gedərik, bu dəfə də çay üçün getmişdik. Restoranın qarşısında həqiqətən milli kalоritə uyğun xoş ab-hava yaradılıb. Burada müxtəlif milli məişət əşyaları, aksesuarlar, milli geyimdə mankenlər yer alır. Və elə bu milliliyin qarşısında da "Halloween" bayramının ənənələrinə uyğun olaraq maket qoyulmuş, valideynlər uşaqların həmin maketlər arxasından fotolarını da çəkib bu "əlamətdar" günü əbədiləşdirirdi.

Bayram libası geyinmiş, üzlərini boyamış klounlar da burada uşaqlarla və onların valideynləri ilə birlikdə idilər. Hətta çay içmək üçün müraciət etdikdə restorandan bizə bildirdilər ki, bağlıdır, bugünkü bayram üçün "rezerv" olunub. Deməli, burada təntənəli şəkildə "Halloween" qeyd olunacaqdı.

Maraqlıdır, bizə məxsus olmayan belə bayramları uşaqlarımızın ağlına kim salır? Onlar nə üçün dəyərlərimizlə, adət-ənənələrimizlə heç bir bağlılığı olmayan bayramlarda iştirak etməli, onun mərasimlərini həyata keçirməlidirlər?

Görəsən onlardan elə bu milli əhval-ruhiyyəli restoranın qarşısında soruşsalar ki, Novruz bayramı, onun çərşənbələri, bu çərşənbələrdə ayrı-ayrılıqda həyata keçirilən mərasimlərdən biri haqqında nə bilirsən, cavab verə biləcəklərmi? Və yaxud da bizim onlarla irili-xırdalı bayramımız var, onlar haqqında necə, bu uşaqların məlumatı varmı?

Çox vaxt gənclikdən gileylənirik. Onların dilimizə, adətlərimizə qayğı ilə yanaşmadığından danışırıq. Lakin bizə sual verən lazımdır ki, bu kimi məsələlərdə gənclərin günahı varmı? Biz yəqin ki, bu sual qarşısında bir qədər düşünməli olacağıq. Lakin heç düşünmədən də demək olar ki, xeyr, onların əsla günahı yoxdur. Çünki onlar bizim əsərimizdir. Necə yetişdirmişiksə, elə də yetişiblər. Bax, "Halloween" bayramındakı uşaqlar kimi...

İllər ötəcək, bu gün əlindən tutub "Halloween"ə apardığımız uşaqlar gənc olacaqlar. Bu zaman onlar milli bayramlarımızla bağlı nəyi isə bilmədikdə, biz onları qınayacağıq. Lakin əsla düşünməyəcəyik ki, axı onları bu günə biz gətirmişik.

Nə üçün biz Avropa ölkələrinin bir neçəsinə məxsus bayramı ölkəmizdə təntənəli şəkildə keçirməliyik? Buna vəsait ayırmalı, uşaqlar üçün paltar almalı, hətta həmin gün restoran da bağlatmalıyıq?

Axı həmin vəsaitin az bir hissəsini çox vaxt uşaqların sağlamlığı, təhsili, gələcəyi üçün xərcləmirik. Biz "Halloween"ə ayırdığımız vaxtın yarısını ayırıb onlarla dilimizlə, tariximizlə, milli kinomuzla, bayramlarımızla bağlı söhbət etmirik. Sonra da deyirik ki, bu uşaqlar bizə oxşamır, bunlar kimə oxşayır belə? Kimə oxşayacaq? "Halloween"lərə. Qapılarımızı taybatay açıb yuxarı başa keçirdiyimiz bizə yad olanlara oxşayacaqlar. Təəssüf ki, biz beləyik. Beləliklə hansı gələcəyə gedirik, bu da məlumdur. Yazıq uşaqlar: yazıq ki, biz onlara düzgün yolu göstərə bilmirik.




# Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır

***Dövlət başçısı İlham Əliyev Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasındakı çıxışında bir daha bildirdi ki, öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.***

Dövlət başçısı İlham Əliyev Kazan şəhərində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasındakı çıxışında bir daha bildirdi ki, öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilibDövlətimizin başçısı İlham Əliyev bu mühüm çağırışı səsləndirir ki, müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir: «Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə, tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir.»

Bu reallıq da inkaredilməzdir ki, güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın, açıq olacaq və bu gün dünya ictimaiyyəti siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi. Dövlət başçısı İlham Əliyev Azərbaycanın güclü iqtisadiyyatının müstəqil xarici siyasətin həyata keçirilməsinə geniş imkanlar yaratdığını bildirir. Ölkəmizin son 21 ildə qazandığı sosial-iqtisadi göstəricilər bunu bir daha sübut edir. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artıb. Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb. Bu illər ərzində ölkəmizdə əlverişli investisiya mühiti yaradılıb. Belə ki. Azərbaycan iqtisadiyyatına 310 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da 200 milyard dollara yaxını qeyri-enerji sektorunun payına düşür. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub. Ölkəmiz Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfər edən dövlət başçısı İlham Əliyev Sammitdəki çıxışında diqqəti bir daha Azərbaycanın beynəlxalq münasibətlər sistemində möhkəmlənən mövqeyinə, yeri və roluna yönəldərək bildirdi ki, ölkəmiz beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır. Bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün Azərbaycana Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Azərbaycanın beynəlxalq nüfuzunun göstəricilərindən olan Qoşulmama Hərəkatı, eyni zamanda, üzv dövlətlərlə əlaqələrinin yüksələn xətlə inkişafını təsdiqləyən xeyli sayda faktlar salamaq olar. Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra da ən böyük beynəlxalq təsisatdır. Prezident İlham Əliyevin sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük uğura imza atıb. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq müstəvidə davamlı və ardıcıl şəkildə irəli sürdüyü təşəbbüs və təkliflər həm Hərəkat, həm də digər ölkələrin geniş dəstəyini qazanıb. Hələ 2019-cu ildə ölkəmiz Qoşulmama Hərəkatının sammitinə uğurla ev sahibliyi etdiyi tədbirdə Prezident İlham Əliyev Azərbaycanın öz sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyini, fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində quracağını bəyan etmişdi. Sədrliyi dövründə ölkəmiz Hərəkat üzvlərinin ədalətli mövqeyini beynəlxalq müstəvidə müdafiə etmək üçün öz səylərini əsirgəmədi. Bu dövrdə Hərəkatın parlament və gənclər şəbəkələri yaradıldı. 2022-ci ildə Şuşa razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis olundu və onun daimi katibliyi Bakıda yerləşəcək. Təşkilatın yaradılması kimi mötəbər uğurdan əlavə, Şuşa şəhərinin adı da artıq Qoşulmama Hərəkatının tarixinə düşdü. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi vurğuladığı məsələlərdən biri də neokolonializmlə mübarizə məsələsidir. Dövlətimizin başçısı bildirir ki, dekolonizasiya mühitində yaranmış Qoşulmama Hərəkatı bu mövzuya xüsusi önəm ayırmalıdır. Prezident İlham Əliyev Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırdı.

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq aləmdə nüfuzu daha da yüksəldi, onun beynəlxalq gündəlikdə duran qlobal məsələlərin həllində rolu daha da artdı. Prezident İlham Əliyevin sədrliyi ilə Hərəkat sürətlə dəyişən bugünkü dünyada öz mövqeyi və yeri olan mötəbər beynəlxalq təsisata çevrilib. Bu gün Qoşulmama Hərəkatı multilateralizm nümunəsi kimi qəbul edilir. Əslində, buna nail olmaq heç də asan deyil. Belə ki, Qoşulmama Hərəkatı fərqli etnik, dini, mədəni köklərə, siyasi quruluşlara malik və bəzən hətta bir-biri ilə kəskin münasibətdə olan 120 dövlətdən ibarətdir. Belə fərqli və mürəkkəb coğrafiyada birləşdirici, effektiv və nəticəyönümlü sədrlik etmək məhz Prezident İlham Əliyevin tarixi uğurudur. Bu uğurlu sədrliyi ilə Azərbaycan göstərdi ki, böyük ərazisi və əhalisi olmasa da, məhz güclü Liderin rəhbərliyi altında qlobal nailiyyətlərə imza ata bilər. Qoşulmama Hərəkatına sədrliyi və belə mötəbər tədbirlərə ev sahibliyi etmək ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin göstəricisidir.

Azərbaycanın mövqeyinin möhkəmləndirilməsində yerləşdiyi coğrafi məkan mühüm rol oynayır. Şərqlə Qərbin qovuşağında yerləşən ölkəmiz dövlətlər, xalqlar arasında körpü roluna yeni əməkdaşlıq formatlarının yaradılması ilə əlavələr edir. Dövlətimizn başçısı İlham Əliyev sözügedən Sammitdəki çıxışında bu məqamları da diqqətə çatdırdı ki, coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir. Ölkəmizdə yolnəqliyyat infrastrukturunun yenilənməsi, təkmilləşdirilməsi dövlətimizin həyata keçirdiyi iqtisadi siyasətin əsas tərkib hissəsidir. Yol iqtisadiyyat, eyni zamanda, əməkdaşlıq əlaqələrinin coğrafiyasının genişləndirilməsi üçün böyük stimuldur. Bu gün təkcə işğaldan azad edilmiş ərazilərimizdə yaradılan yol infrastrukturunun timsalında Azərbaycanın beynəlxalq nəqliyyat mərkəzinə çevrildiyini böyük əminliklə deyə bilərik. Belə ki, bu torpaqlarda 3 beynəlxalq hava limanının tikintisi nəzərdə tutulmuşdur ki, artıq ikisi - Füzuli və Zəngilan aeroportları istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının isə 2025-ci ilin əvvəllərində istifadəyə verilməsi nəzərdə tutulur. Bu hava limanlarının beynəlxalq status qazanması özündə bütün məqamları ehtiva edir. Ümumilikdə bütün bölgələrdə yol-nəqliyyat əsasdır. Azərbaycan bu sahədə də qazandığı uğurları ilə beynəlxalq maliyyə qurumlarının hesabatlarında liderliyini qoruyur. Hər bir ölkənin malik olduğu iqtisadi imkanların təqdimatında əhəmiyyətli rol oynayan Davos Dünya İqtisadi Forumunun hesabatına nəzər saldıqda görürük ki, Azərbaycan reytinqlərə görə dünya miqyasında qabaqcıl yerlərdə dayanır. Belə ki, ölkəmiz avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Dəmir yollarının səmərəliliyinə görə dünyada 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdədir. Bu yüksək yerləri əldə etmək böyük səylər, düşünülmüş siyasət tələb edir. Əhəmiyyətinə görə enerji layihələrindən geri qalmayan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun Azərbaycanın təşəbbüsü ilə inşa edilməsi bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsini yaratdı.

Bu gün nəqliyyat sektorumuz həm müasir, həm də ölkə qarşısında duran vəzifələri icra etməyə imkan verir. Eyni zamanda, bu sahəyə qoyulan milyardlarla dollar səviyyəsində sərmayələr artıq bizim qeyri-neft iqtisadiyyatımıza öz müsbət təsirini göstərir. Dövlətimizin başçısı İlham Əliyev onu da bildirir ki, nəqliyyat sektoruna qoyulan sərmayələr 1-2 ilə, hətta 5-10 ilə geri qayıdan sərmayələr deyil. Bu, uzunmüddətli sərmayədir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulub. Ölkəmizi regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevirmək strategiyasının tərkib hissəsi olan, Şərq-Qərb, Şimal-Cənub, nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yüktoplama məntəqəsi funksiyasını yerinə yetirir. Bu liman şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanmasını, onların BTQ üzrə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınmasını təmin edən səmərəli və davamlı logistika zəncirinin formalaşması üçün əsas amildir.

Dövlət başçısı tarixi Zəfərimizin reallıqlarını söyləyərkən Azərbaycanın tranzit imkanlarının genişlənməsində öz sözünü deyəcək Zəngəzur dəhlizinin açılması məsələsinə də xüsusi diqqət göstərir. Bildirir ki, ölkəmizin ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq: "Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda, Azərbaycan ərazisindən daşımalar, həmçinin Gürcüstanın dəniz limanından keçəcək. Biz bu sahədə müəyyən sərmayə imkanlarına böyük maraqla baxırıq. Həqiqətən, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda, o da vacibdir ki, bu işlər ölkələr arasında əlaqələri gücləndirəcək. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq."

Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, mövqeyinin möhkəmləndirilməsinə yönələn addımların miqyası genişliyi ilə diqqətdədir. Ölkəmizin ev sahibliyi etdiyi tədbirlər əməkdaşlığın coğrafiyasının nə qədər geniş olduğunu təsdiqləməklə yanaşı, Azərbaycanın hər bir sahədə zəngin təcrübəyə malik olmasını nümayiş etdirir. Qalib Azərbaycanın bundan sonra daha da möhtəşəm tədbirlərə ev sahibliyi edəcəyi, müxtəlif qurumlara üzv qəbul olunacağı, eyni zamanda, fəxri qonaq qismində qatılacağı şəksizdir. COP29 bir daha bu reallıqların təqdimatına geniş imkanlar yaradacaq.

***Yeganə Əliyeva***

# Əli Kərimlinin xəstə ambisiyaları Nurəddin Məmmədlinin istefası ilə nəticələndi



**Əli Kərimli sosial şəbəkələrdə baboşlardan biri ola bilər, lakin bundan sonra siyasətçi ola bilməz**

***Dağıdıcı müxalifətin və xaricdəki antimilli ünsürlərin ağılsız, ikibaşlı və milli maraqlara ziddi fəaliyyətləri onların içəridən çürüməlerinə və tədricən sıradan çıxmalarına gətirib çıxarır. Artıq istəsələr belə ictimai-siyasi proseslərdə demaqoqluq edə, xarici qaranlıq dairələrə "donos"lar göndərə, yalan, populist vədlərlə ən azı mətbuatın diqqət mərkəzinə çevrilə bilməzlər.***

Çünki bütün hallarda onlar millətin gözündən düşən məxluqlara çevriliblər. Bütün bu kimi baş verənlərə əsaslanaraq demək olar ki, yaxın vaxtlarda AXCP, Milli Şura, Müsavat kimi qurumların parçalanaraq tarixin arxivinə atılması prosesi baş verəcək. Son günlər AXCP-nin rəhbər strukturlardan ardıcıl olaraq istefaların baş verməsi və bunun fonunda sıravi üzvlərin Əli Kərimlinin sədrlikdən istefasını tələb etmələri qeyd olunanlara misal ola bilər. AXCP MNTK-nın sədri Aydın Əliyevin Əli Kərimli haqqında xüsusi ittiham qaydasında məhkəməyə şikayət etməsinin ardınca partiyanın Salyan, Xətai, Abşeron və Şəki rayon təşkilatlarından 10 cəbhəçinin, eləcə də Asif Yusiflinin AXCP Rəyasət Heyətinin üzvlüyündən və Nurəddin Məmmədlinin Ali Məclisin sədri və Rəyasət Heyətinin üzvlüyündən istefa verməsi AXCP-nin çox qısa müddətdə fəaliyyətini dayandıra və ya hansısa partiyaya birləşməsi ehtimallarını yaradır. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ə.Kərimli acınacaqlı məsələləri cəbhəçilərin iştirakı ilə müzakirələrlə həll etməkdənsə, hikkə və iddialarla narazıların üstünə getməkdədir. Hətta qərarlarına və idarəetməsinə qarşı çıxanların sərt şəkil də cəzalandırılacağını bəyan edir. Bu isə Ə.Kərimlinin AXCP-yə özünün şəxs firması kimi baxdığını göstərir. Rəhbərlik etdiyi AXCP-yə heç bir uğur qazandırmayan Ə.Kərimli partiya daxilində tənqidlərə dözümsüzlük göstərdiyi üçün çıxış yolunu tənqid edənləri partiyadan uzaqlaşdırmaqda görür. Ali Məclis sədrinin istefasından sonra Ə.Kərimlinin təkbaşına idarəetməni əlinə aldığı görünür. Bu cür "unikal" idarəetmə Ə. Kərimlinin avtoritar xasiyyətindən və partiyanın amorf mahiyyətindən xəbər verir.

### "Yurd" şefinin xəstə ambisiyaları səbəbindən AXCP içəridən çürüyür

Əli Kərimlinin yaxın dostlarının partiyadan istefa verməli ortada ciddi problemlərin olmasından xəbər verir. Xüsusilə də, Ali Məclisin sədri Nurəddin Məmmədlinin partiyadan getməsi çox ciddi əlamət hesab olunur. Çünki AXCP-də əski cəbhəçilərin sayları barmaqla sayılan qədərdir. Əksəriyyəti Ə.Kərimlinin yanlış siyasətinə etiraz əlaməti olaraq partiyanı tərk ediblər. Ona görə də, Ə.Kərimli bütün imkanlarını səfərbər etməklə bir neçə nəfərdən ibarət olan əski cəbhəçiləri partiyada qoruyub saxlamağa çalışır. Nurəddin Məmmədli AXCP- yə 2003-cüil də gəlsə də, özünü partiya quruculuğunda olan və Ə.Kərimlinin sadiq tərəfdarlarından biri kimi göstərə bilmişdi. Ə.Kərimli onun xidmətlərini yüksək dəyərləndirərək aylıq maaşını stabil saxlamaqla yanaşı, partiyanın Ali Məclisinin sədri olaraq qalmasına yardımçı olmuşdur. Baxmayaraq ki, partiyanın əksər üzvləri Ə.Kərimlinin N.Məmmədlini Ali Məclis sədri təyin etməsinə qarşı çıxmışlar. Hətta bir qədər əvvəl AXCP Rəyasət Heyətinin üzvləri Asif Yusifli və İlham Hüseyn partiya sıralarını tərk etmələri barədə sosial şəbəkədə status paylaşarkən istefa səbəblərini dolayısı ilə N.Məmmədlinin Ali Məclisin sədri təyin olunmasına etiraz etmələri ilə əlaqələndirmişdilər. Sonradan qınaq obyektindən yayınmaq üçün fikirlərini təkzib etdilər. Hətta AXCP-dəki trolların rəhbəri İ.Hüseyn ümumiyyətlə paylaşdığı istefa statusundan imtina etdi. A.Yusifli isə istefa qərarını dəyişmədiyini bəyan etdi və bildirdi ki, partiyadan istefasına səbəb Ə.Kərimlinin səhv seçki siyasətidir. O, sentyabrın 1-də keçirilən parlament seçkilərində AXCP-nin iştirak etməsini israr etsə də, Ə.Kərimlinin qatı diktatura mövqeyi səbəbindən istəyini dəstəkləyənlərin sayının az olduğunu bildirdi. Doğrudan da əgər bir partiya ki, seçkilərə qatılmırsa, bu, artıq AXCP-nin siyasi partiya statusunun legitimliyini itirdiyini göstərir. Haqlı olaraq da aktiv siyasi fəaliyyətin tərəfdarı olan cəbhəçilər AXCP-nin sıralarını tərk etməklə daha geniş meydan qazanmağa çalışırlar. Hansı ki, orada seçkilərə qatılmamaq, siyasi proseslərdə iştirak etməmək kimi qadağalar yoxdur.

### Ə.Kərimli nəhayət mövcud reallıqları istəməsə də qəbul edərək, AXCP-nin buraxıldığını elan edəcək

AXCP-də sıravi üzvlərin, xüsusilə də partiyanın əsas rəhbərlərindən olan Nurəddin Məmmədlinin və Asif Yusiflinin istefaya getməsi təşkilat daxilində ideoloji böhranın yaşanmasından xəbər verir. Həm də onların istefası zəncirvari reaksiya olaraq silsilə istefalara səbəb olacaq. Bütün bunlara ona dəlalət edir ki, AXCP siyasi fəaliyyətini yekunlaşdırmağa yaxındır. Ə. Kərimli isə partiya sədri kimi artıq çoxdan bitib. Onun sədrliyi və siyasi fəaliyyəti yalnız nəzarətsiz zona hesab olunan sosial şəbəkələr üzərindən tragikomediya üslubunda edilən çıxışlar ilə məhdudlaşır. Yəqin ki, bundan sonra AXCP-nin mövcudluğu uzun çəkməyəcək. Yəni bir qədər sonra Ə.Kərimli daha bir açıqlama ilə çıxış edəcək: "AXCP adlı firmanı bağlayıram". Çünki inandırıcı deyil ki, hələ də qurultay keçirə və partiyanın legitim strukturlarını formalaşdıra bilməyən Ə.Kərimli özünü AXCP sədri olaraq təqdim etməyə çalışsın. Belə hal yaşansa, bu, artıq dünyada analoqu olmayan həyasızlıq hesab oluna bilər. Ona görə də, Ə.Kərimli nəhayət mövcud reallıqları istəməsə də qəbul edərək, AXCP-nin buraxıldığını elan edəcək. Beləliklə də, əski peşəsinə- sosial şəbəkələrdə blogerlik fəaliyyətinə başlayacaq. Bəlkə də sosial şəbəkələrdə baboşlardan biri olsun, lakin bundan sonra heç zaman siyasətçi ola bilməz.

***İLHAM ƏLİYEV***

# "Aİ Azərbaycanla əlaqələrinə böyük zərbə vurur"



"Avropa Parlamentinin ölkəmiz əleyhinə oktyabrın 24-də qəbul etdiyi qətnamə növbəti dəfə bu qurumun öz qərarlarında ikili standartlara əsaslandığını sübut edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. O bildirib ki, qətnamənin adına baxmaq kifayətdir ki, bu qətnamənin insan hüquqları adı altında əslində hansı məqsədə xidmət etdiyini görəsən - "Azərbaycanda vəziyyət, insan hüquqları və beynəlxalq hüquqların pozulması, Ermənistanla münasibətlər": "Ermənistanla münasibətlər adı altında Qarabağı könüllü şəkildə tərk etmiş ermənilərin və separatçı rejimin liderləri olan terrorçuların hüquqlarını ön plana çəkən Avropa Parlamenti təmsilçiləri bir milyondan çox Azərbaycanlının evlərindən qovulmasına, Ermənistanın etnik təmizləmə siyasəti aparmasına, ərazilərimizi 30 il işğal altında saxlamasına baxmayaraq bir dəfə də olsun bu ölkəyə qarşı qətnamə qəbul etmədikləri halda indi bizə qarşı bu cür riyakar mövqe sərgiləyirlər.

Üstəgəl bütün bunlar Avropa İttifaqı ölkələrinin bir qisminin Ermənistanı silahlandırması, Avropa İttifaqının sülh fondu vasitəsilə Ermənistana silah və texnika alınması üçün milyonlarla vəsait ayırması fonunda baş verir. Əslinə baxanda bütün bunlar gözlənilən idi. COP29 ərəfəsində bir sıra Avropa institutları kimi Avropa Parlamentinin də xordan geri qalmayaraq bu cür qətnamə qəbul etməsi onu göstərir ki, bütün bu hücumlar eyni mərkəzdən idarə olunur.

Avropanı əslində nə Azərbaycandakı vəziyyət, nə də insan hüquqları maraqlandırmır. Və mən tamamilə əminəm ki, Azərbaycan da Ermənistan kimi sözə baxan, müti, müstəqil siyasət yürüdə bilməyən ölkə olsaydı, o zaman insan hüquqları da yada düşməyəcəkdi. Bir daha təkrar edirəm, əgər onlara həqiqətən də Azərbaycandakı vəziyyət maraqlı olsaydı, torpaqlarımız işğal olunanda, bir milyona yaxın qaçqın və məcburi köçkün şəraitsiz çadır düşərgələrində yaşayanda, xalqımıza qarşı soyqırımlar törədiləndə, dini-mədəni abidələrimiz, şəhər və kəndlərimiz dağıdılaraq talandıqda münasibət bildirərdilər. Və ya heç olmasa indi, Ermənistanın həyata keçirdiyi mina terroruna münasibət bildirərdilər. Amma yox, Gəncə, Bərdə, Tərtərdə mülki insanımıza qarşı terror aktlarına göz yumduqları kimi, mina terrorunu da görməzdən gəlirlər".

"Bütün bunlar azmış kimi Avropa Komissiyasına Azərbaycanla 2022-ci ildə bağlanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında sazişə yenidən baxılmasını və Azərbaycandan qazın alınmasını dayandırılması ilə bağlı çağırışlar edirlər. Bu o deməkdir ki, Avropa Parlamenti öz absurd qətnamələri ilə hətta Avropa İttifaqının maraqlarını belə zərbə altına qoyur. Rusiya-Ukrayna müharibəsi fonunda Rusiyaya qarşı tətbiq olunmuş sanksiyalardan sonra Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyində yeganə alternativ rolunda çıxış edir. Avropa Parlamenti isə Avropa İttifaqının enerji təhlükəsizliyinə balta vurmağa çalışır. Bütün bunların Avropa İttifaqı üçün yaxşı heç bir nəticə verməyəcəyi ortadadır. Əksinə bu cür fəaliyyətlə Avropa İttifaqı özünün Azərbaycanla əlaqələrinə böyük zərbə vurur" - deyə o, əlavə edib.

***S. Ağazadə***

# Kredit götürən şəxs vəfat edibsə, borcun aqibəti necə olacaq?



AYDINLIQ GƏTİRİLDİ

"Azərbaycan Respublikası Mülki Məcəllənin 1151-ci maddəsinə əsasən, mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

O bildirib ki, bu o deməkdir ki, vərəsə vəfat edən miras qoyan şəxsin hüquqlarını qəbul edirsə, deməli vəzifələrini də qəbul edir: "Başqa cür desək, miras aktivini istəyirsə, miras passivinə daxil olan öhdəlikləri də icra etməlidir. Məsələn, vəfat edən şəxsin 1 övladı var. Vəfat edən sağ ikən hansısa bankdan 5000 AZN kredit götürmüş, 2000 AZN kredit ödənişi etdikdən sonra rəhmətə getmişdir. O sağ ikən bir avtomobil və bir ev almışdır. Onun övladı əgər atasından qalan həmin əmlakları (avtomobili və evi) qəbul edirsə, demək ki, atasından qalan 3000 AZN borcu da qəbul etmiş sayılır. Bankın hüququ var ki, qalan kredit borcunu övladdan tələb etsin. Yox əgər övlad atasından qalan miras əmlakdan imtina edirsə, bankın övladdan nə isə tələb etmək hüququ yoxdur.

Mülki Məcəlləyə əsasən, ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqla-





rı ola bilərlər. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq ola bilərlər".

***Söylü***

# BRICS birliyi nə dərəcədə effektlidir?

***Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü Polad Mehdiyevin SİA-ya müsahibəsini təqdim edirik:***



**- Oktyabrın 22-də Kazanda öz işinə başlamış 16-cı BRİCS sammitinin Rusiya üçün son dərəcə önəmi var. İstər mənəvi, istərsə də diplomatik cəhətdən Moskva üçün böyük əhəmiyyətə malikdir. Bəs BRİCS sammiti Azərbaycan üçün hansı dividentləri qazandırıb?**

- BRICS sammiti dünyada mövcud olan əhəmiyyətli beynəlxalq qurumlardan biridir. Bunun əhəmiyyəti onun iqtisadi potensialı ilə əlaqədardır. Yaxın keçmişimizə münasibət bildirdikdə 1945-ci il Yalta konfransından etibarən dünyanın siyasi nizamında yeni konyunktura qurulmağa başladı. Bu konyunkturaya əsasən dünya ölkələrini şərti olaraq üç qrupa bölmək olar. Birinci qrup Qərb bloku təmsil edən ölkələr başda ABŞ olmaq şərtilə, digər qrupa Sovet quruluşu üzvlərini və sovetlərə ideoloji, iqtisadi və siyasi cəhətdən yaxın olan




ölkələr aiddir. Üçüncü qrup ölkələrə başda Hindistan olmaqla digər ölkələr aiddir. Bu cür konyunktura beynəlxalq münasibətlərdə 1989-cu ilin Malta konfransına qədər davam etdi. Qarbaçovun iştirakı ilə keçirilmiş həmin Malta konfransı Berlin divarının uçması ilə əlaqədar idi. Nəticədə dünyada artıq ikitərəfli qütb və şərti böldüyümüz üç qrup dünya ölkələri arasındakı bu nisbət dağıldı. Amerika Birləşmiş Ştatlarının rəhbərlik etdiyi təkqütblü sistemin əlamətləri görünməyə başladı. Bu proses uzun müddət davam etdi.

Bir çox beynəlxalq münaqişələrə və nizama salınmağa ehtiyacı olan məsələlərə, o cümlədən ABŞ-ın öz maraqlarını əhatə edən məsələlərə münasibətdə ABŞ "Yumşaq güc" tətbiq etməklə prosesləri həll edə bilirdi. Bu dünyadakı digər dövlətlərin – Rusiya, Çin, Hindistan, Cənubi Afrikanın və regional dövlətlərin – Türkiyə, İranın dünya siyasətinə təsirləri artmağa başladıqca Qərb tərəfindən "Yumşaq güc" tətbiq etməklə məsələlərin həlli çətinləşdi. Bu baxımdan "Yumşaq güc"lə yox, birbaşa aktiv müdaxilələrlə maraqların qorunması prosesi başladı. Biz bunun təzahürlərini Ukrayna-Rusiya münaqişəsində, yaxın şərqdə İsrail vasitəsilə baş verən hadisələrdə görürük. Eyni zamanda bunun əlamətlərindən biri də Cənubi Qafqazdadır. Düzdür, Azərbaycan rəhbəri cənab İlham Əliyevin və Azərbaycan ordusunun çox güclü və yerində həmləsi ilə Cənubi Qafqazda münaqişə ocağı yatırıldı. Ancaq maraqların toqquşması baş verir və davam edir.

Eyni zamanda Tayvanda da bu toqquşma gözlənilir. Həmin bu təktərəfli dünya artıq Qərbin çoxtərəfli qüvvələrinin iştirakı ilə maraqların toqquşması nəticəsində görünür ki, çoxtərəfli qütbə doğru çevrilməkdədir. Artıq bir tərəfin maraqları ilə yox, bir neçə tərəfin marağı nəzərə alınmalıdır. Bu fonda Qərbin inhisarında olan beynəlxalq təşkilatlardan kənar BRİCS kimi, Qoşulmama Hərəkatı kimi beynəlxalq münasibətləri və iqtisadi münasibətləri özündə ehtiva edən təşkilatların formalaşması olduqca əhəmiyyətlidir. Nəzərə alsaq ki, BRİCS-də kifayət qədər ciddi iqtisadi resursa malik olan dövlətlər var. Misal üçün, dünya iqtisadiyyatının dörddə biri hal-hazırda BRICS üzvləri olan ölkələrdədir. Eyni zamanda ciddi əhali kütləsi var. Təxminən dünya əhalisinin 50 faizi BRİCS ölkələrinin payına düşür. Bu baxımdan bu cür təşkilatın Azərbaycanın iştirakı, münasibətlərin formalaşması olduqca əhəmiyyətlidir.




**- BRİCS birliyi nə dərəcədə effektlidir?**

- Birincisi, bilavasitə həmin birliyin effektindən daha çox çoxtərəfli beynəlxalq münasibətlərin Azərbaycana effekti nə dərəcədədir, hansı imkanları yaratmasına, ardınca isə bu təşkilatın faydalılıq əmsalına baxaq. Azərbaycanın həyata keçirdiyi siyasət müstəqillik dövründən etibarən Azərbaycanın nə Qərb, nə Şərq üzərində, Azərbaycan maraqları üzərində qurulub. Azərbaycanın dövlət maraqları var. Azərbaycanın iqtisadi maraqları, təhlükəsizlik maraqları və enerji maraqları var. Azərbaycanın bu maraqlarına hörmət edərək, bunları qəbul edərək əməkdaşlıq qurulmalıdır. Bunu nəzərə alıb Azərbaycanla əməkdaşlıq edən istənilən tərəflə Azərbaycanın çox uğurlu əməkdaşlığı olub. Qərblə iqtisadi, enerji layihələrimiz bu istiqamətdə olub. Siyasi əməkdaşlıqlarımız olub. Biz NATO-nun tərəfdaşıyıq, Avropa Şurasına üzvük, Rusiya ilə müttəfiqlik haqqında saziş bağlamışıq. Çinlə strateji əməkdaşlıqla bağlı saziş bağlamışıq, İsraillə münasibətlərimiz yüksək səviyyədədir. Azərbaycanın siyasi dövlət maraqları, iqtisadi enerji maraqları təmin olunacağı təqdirdə Azərbaycan bütün tərəflərlə əməkdaşlıq edir, işləyir.

**- Cənab Prezident İlham Əliyev bir çox dövlət başçısı ilə ikitərəfli görüşlər keçirdi. Ən maraq doğuran məqam isə iclas ərəfəsində Prezident İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyan ilə görüşü idi. Hətta görüşə hər iki dövlətin nazirləri də cəlb olunmuşdu. Mətbuata açıqlanmasa da, sosial şəbəkələrdə istər-istəməz müzakirə obyektinə çevrilib. Hansı mövzularda müzakirələr gedirdi?**

- Ermənistan-Azərbaycan arasında sülh sazişi ilə bağlı məsələlər kifayət qədər çox müzakirə olunub. Kifayət qədər bəzi ictimaiyyətə açıq detallar hər kəs üçün məlumdur. Azərbaycan sülh tərəfdarıdır. Azərbaycan qələbəsini sülh sazişi ilə rəsmiləşdirmək istəyir. Əgər biz bu gün sülh sazişindən danışırıqsa, bu bilavasitə Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək legitim güc tətbiq etməsi nəticəsində olub. 44 günlük Vətən müharibəsi, ardınca anti-terror tədbirləri olmasa idi bu gün Qafqazda sülhdən heç kəs danışmazdı. Necə ki, 30 il ərzində danışmayıblar. Sülh danışırıqsa, Azərbaycanın birinci qanuni müdaxiləsidir, ikincisi isə, müharibədən dərhal sonra Azərbaycan tərəfindən sülh sazişi ilə bağlı 5 baza prinsipi təklif olundu. 5 baza prinsiplərinə çoxlu sayda şərhlər verərək geri qaytardılar. Kifayət qədər uzun müddətə sonuncu təkliflərimizi 70 gün gözlədilib sonra münasibətlərini bildirdilər. Azərbaycan sülh tərəfdarıdır və sülhlə bağlı lazım olan bütün addımları atır.

**- Azərbaycan tərəfi sülhə doğru bütün addımları atıb. Ermənistan tərəfi hələ də tərəddüd içindədir. Proseslər nəyi göstərir? Yaxın zamanda sülhə doğru addım atıla bilərmi, yoxsa Ermənistan yenidən müharibə aurasındadır?**

- Sülhlə bağlı Azərbaycanın təşəbbüsü ilə ikitərəfli platformaya keçdik. İkitərəfli platformanın həm də əhəmiyyəti ondan ibarətdir ki, bu münaqişəni biz beynəlxalq güclərin maraq dairəsindən çıxardaraq ikitərəfli müstəviyə salırıq. Bunun əhəmiyyəti ona görədir ki, əgər hər hansı sülh sazişində xarici dövlətlərin maraqları varsa, o zaman maraq əsas götürülür və sülh sazişi o marağın kölgəsinə keçir. Amerika Birləşmiş Ştatlarının səlahiyyətli şəxsi C.Obrayn çıxışında bildirir ki, sülh sazişi bağlamaqla Rusiyanı regiondan sıxışdırıb çıxarmaq lazımdır. Burada söhbət ondan gedir ki, əgər sülh sazişinin bağlanmasında məqsəd hansısa bir gücün bölgədən çıxarılıb digər bir gücün yerləşməsidirsə, o zaman sülh müqaviləsi tez baş verməyəcək. Bu baxımdan ikitərəfli danışıqlar çox əhəmiyyətlidir. Biz bununla bağlı kifayət qədər uğurlu addımlar atmışıq, nəticəyönümlü işlər görmüşük. Göstərə bilərik ki, delimitasiya prosesinin sürətləndirilməsi ilə bağlı komissiyanın yaradılması üçün əsasnamənin təsdiq olunması uğurlu addımdır. Lakin razılaşmadığımız müəyyən detallar var. Azərbaycanın haqlı tələblərinə adekvat olmayan müəyyən addımlar var. Zəngəzur dəhlizi, dəhlizlərin açılması ilə bağlı Ermənistan tərəfinin üzərinə düşən öhdəliyi yerinə yetirməməsi, Ermənistan qanunvericiliyinin Azərbaycana qarşı ərazi iddiasının aradan qalxması, bununla bağlı normativ hüquqi aktlarda dəyişiklik etməməsi, münaqişə ilə bağlı yaranmış olan keçmiş ATƏT-in Minsk Qrupunun ləğv edilməsi məsələsi, o cümlədən sərhədlərin delimitasiyasında mübahisəli məqamlar var. Bu vacib məsələlər həllini tapmalıdır. Bunu Qərb də, Rusiya da, ermənilər də bilir.

**- BRICS ölkələrinin ortaq və fərqli cəhətləri nədir?**

- İlk olaraq iqtisadi maraqlar bu ölkələri birləşdirir. BRİCS üzvlərinə – Rusiya, Çin, Hindistan, Cənubi Afrikaya, Braziliyaya baxdıqda bunların böyük iqtisadi potensialları var və iqtisadi potensialların qarşılıqlı əməkdaşlıq çərçivəsində artırılması əsas məqsədlərdən biridir. Bilirik ki, müasir dövrümüzdə alət kimi sanksiyalar tətbiq olunur. Dünyada sadəcə siyasi və beynəlxalq münasibətlər nöqteyi-nəzərdən institutlar Qərbdə formalaşmayıb. Eyni zamanda beynəlxalq iqtisadi sistemlə, beynəlxalq maliyyə sistemi də, təəssüflər olsun ki, inhisarlaşmış formadadır. Bu baxımdan hər hansı bir dövlətin atacağı istənilən fərqli addıma görə sanksiya ilə üzləşmə ehtimalları var. Təsadüfi deyil ki, Azərbaycana qarşı da mütəmadi sanksiya ilə hədələmələr var. Birinci növbədə iqtisadi əməkdaşlıq, bunun ardınca vahid maliyyə sisteminin əmələ gəlməsi məsələsi var. Yeni iqtisadi sistem formalaşdırıla bilsə, dollar inhisarçılığına son qoymaq deməkdir. İkinci əhəmiyyətli cəhəti nəqliyyat nöqteyi-nəzərdən əhəmiyyətlidir. Çünki böyük infrastruktur var. Coğrafiya ona imkan verir. Misal üçün Hindistanla Rusiyanın, Orta Asiya ilə Çinin və Qərbin əməkdaşlığını deyə bilərik. Bu platformanı Qərbə qarşı görmək düzgün deyil. Yaxud da, Qərbi buna qarşı qoymaq düzgün deyil. Doğrusu budur ki, siyasi, iqtisadi inhisarçılıq aradan qalxsın. Çoxqütblü, çoxtərəfli münasibətlər yaransın. Bu baxımdan o təşkilatın qurulması, inkişafı çox əhəmiyyətlidir.

***Söylü Ağazadə***





# İsrail niyə İrana hücum etdi?

***İsrail və İran uzun illərdir ki, kölgə müharibələri aparır. Bu yaxınlarda isə onların münaqişəsi açıq müstəviyə çıxdı. Şənbə günü gecə İsrail İranın hərbi obyektlərinə hava zərbələri endirdi. Bayden administrasiyası xəbərdar edildi və İsrail əməliyyatını təsdiqlədi.***

İsrail ordusu şənbə günü İrana qarşı bir sıra hava hücumları təşkil etdiyini bildirib. Paytaxt Tehran sakinlərinə görünən və eşidilən hücumlar İranın İsrailə ballistik raketlər atmasından bir neçə həftə sonra baş verdi və milyonlarla israilli bomba sığınacaqlarında sığınacaq axtarmağa məcbur oldu.



Tehran o vaxt bildirmişdi ki, bu ayın əvvəlindəki hücum İsrailin bir iranlı komandiri və regionda İranın dəstəklədiyi qrupların bir neçə liderini öldürməsinə cavabdır. Aşağıda İsrailin İrana qarşı hərbi əməliyyatları və ölkələri bu nöqtəyə gətirən hadisələrlə bağlı əlimizdə olan bütün məlumatların icmalı verilib.

## Nə baş verib?

İsrail ordusu şənbə günü saat 02:30-da verdiyi açıqlamada "İrandakı hərbi hədəflərə dəqiq zərbələr endirdiyini" bildirib. Mesajda həmçinin qeyd olunub ki, onlar İran və onun Yaxın Şərqdəki müttəfiqlərinin İsrailə qarşı bir ildən artıq davam edən hücumlarına cavab olaraq hərəkət edirlər. Hərbçilərin yaydığı press-reliz yəhudi dövlətinin İran ərazisində hərbi fəaliyyət göstərməsi faktını etiraf etdiyi nadir haldır.

Tehran sakinləri şəhərdə və ətrafında partlayış səsləri eşitdiklərini bildiriblər. Səhər saat altıdan sonra hərbçilər əməliyyatın başa çatdığını elan ediblər. İsrail rəsmiləri bildiriblər ki, hücum 20 hədəfi vurduqdan sonra səhər saat 5 radələrində başa çatıb. Apreldə edilən analoji hava hücumları mübadiləsində İsrail, oktyabrın 1-də Tehranın razılaşdığı İsrail ərazisindəki hədəflərə kütləvi raket hücumuna bənzər İran hücumuna cavab vermək üçün cəmi beş gün çəkdi. Bu dəfə İsrail və Bayden administrasiyası arasında aparılan danışıqlar, ABŞ hava hücumundan müdafiə sisteminin ölkəyə çatdırılması və yəhudi bayramları da daxil olmaqla, müəyyən faktorlar təxminən 25 günlük daha uzun cavab müddətini diktə edib. Cavab zərbəsinin vaxtına ABŞ-da qarşıdan gələn prezident seçkiləri də təsir edə bilər. Keçən həftə açıqlanan ABŞ kəşfiyyatının iki məxfi sənədləri İsrail ordusunun İrana potensial zərbəyə hazırlığını əks etdirən peyk şəkillərini təsvir edir və Amerikanın planlarla bağlı narahatlığını vurğulayır.



*İsrail şənbə günü gecə İrandakı hərbi obyektlərə bir sıra hava zərbələri endirdi*

## İsrail və İran qarşıdurmasında bu nöqtəyə necə gəliblər?

İran və İsrail onilliklərdir ki, mahiyyətcə kölgə müharibəsi olan münaqişə ilə məşğuldurlar. Tehran İsrailin maraqlarına zərbə vurmaq üçün Həmas və Hizbullah da daxil olmaqla müttəfiq qruplar şəbəkəsindən istifadə edir, İsrail isə İranın yüksək vəzifəli məmurlarını və nüvə alimlərini qətlə yetirir və kiberhücumlar həyata keçirir. İki ölkə arasında münaqişə bu il HƏMAS-ın 2023-cü il oktyabrın 7-də İsrailə hücumundan sonra yenidən alovlanıb. Aprel ayında İran İsrailə raket və pilotsuz təyyarələr buraxdı. Bu hücum ölkəyə ilk birbaşa hücum idi. Bu, İsrailin Suriyanın paytaxtı Dəməşqdəki İran səfirliyi kompleksinə endirdiyi və üç yüksək rütbəli iranlı komandirin ölümünə səbəb olan zərbəyə cavab olaraq xidmət edib. İsrail, ABŞ və digər müttəfiqləri tərəfindən dəstəklənən hava hücumundan müdafiə sistemlərindən istifadə edərək İranın raket zərbəsini böyük ölçüdə dəf etdi və öz zərbəsi ilə cavab verdi. Daha sonra, iyulun sonunda israillilər ən azı 12 nəfərin ölümü ilə nəticələnən raket hücumuna cavab olaraq Livanın Beyrut şəhərində Hizbullahın yüksək rütbəli komandirini öldürdülər.

Bir gün sonra HƏMAS-ın siyasi lideri İsmayıl Haniyə Tehranda öldürüldü. İran hökuməti və Hizbullah qisas alacaqlarına söz verdilər, lakin çoxlarını təəccübləndirən İran dərhal heç bir tədbir görmədi. Oktyabrın 1-də Tehran İsrailə raket zərbələri endirdi, ölkənin İslam İnqilabı Keşikçiləri Korpusunun bildirdiyinə görə, bu, Haniyə, Hizbullah lideri Həsən Nəsrullah və iranlı komandirin öldürülməsinə cavab idi.

## İsrailin məqsədi nədir?

İranın dəstəklədiyi Hizbullah və HƏMAS-a ciddi qan tökən İsrail müttəfiqləri, xüsusən də ABŞ-ın yeni hücumun daha geniş regional müharibəyə səbəb ola biləcəyi ilə bağlı narahatlıqları ilə strateji hədəflərini balanslaşdırmağa çalışıb. İsrail hökuməti Bayden administrasiyasına İranın nüvə zənginləşdirmə və neft hasilatı obyektlərinə hücumların qarşısını almağa söz verib. Eyni zamanda, onların sözlərinə görə, İsrail də hücumlar zamanı diqqəti İranın hərbi hədəflərinə yönəltməyə razılaşıb. ABŞ rəsmiləri iki həftədən az vaxt qalmış prezident seçkiləri ilə daha ciddi Yaxın Şərq münaqişəsinə qarışmaq perspektivindən narahatdırlar. Şənbə günü baş verən hücumla bağlı İsrail bildirib ki, onun döyüş təyyarələri raket istehsal edən obyektlərə, yerdən havaya raket anbarlarına və digər hərbi obyektlərə zərbələr endirib.

İranın Milli Hava Hücumundan Müdafiə Qüvvələri bildirib ki, israillilər Tehran da daxil olmaqla İranın üç əyalətindəki hərbi bazalara hücum edərək "məhdud ziyan" vurublar. Nüvə və ya neft infrastrukturundan yayınmaqla, İsrail çox güman ki, iki düşmən arasında bölgə üçün dağıdıcı nəticələrə səbəb olacaq hərtərəfli müharibə ehtimalını məhdudlaşdırmağa çalışıb.

## İsrailin hərbi potensialı nə qədərdir?

İsrail bu yaxınlarda nümayiş etdirdi ki, uzaq mənzilli hava hücumları həyata keçirməyə qadirdir. Sentyabrın sonunda Yəmən husilərinə qarşı hücumda İsrail ordusu elektrik stansiyalarına və nəqliyyat infrastrukturuna hücum etmək üçün min mildən çox məsafə qət etdi. Əməliyyatda kəşfiyyat təyyarələri və onlarla döyüş təyyarəsi iştirak edib, uçuşun ortasında yanacaqla doldurulmalı olub. Tehran İsraildən təxminən 1600 km məsafədə yerləşir. İranın hava hücumundan müdafiəsi Livan və Yəməndən qat-qat güclüdür, lakin İsrail üstünlüyünə malik ola biləcəyini göstərdi. Aprel ayında İrana ilk raket hücumuna cavab olaraq israillilər ölkənin mərkəzi hissəsində, İranın nüvə proqramında əsas rol oynayan Natanz şəhəri yaxınlığında yerləşdirilmiş S-300 zenit sistemini zədələyiblər. Qərb və İran rəsmiləri İsrailin hücumda pilotsuz təyyarələrdən istifadə etdiyini və hərbi təyyarədən ən azı bir raket atdığını bildirib. Bu zərbə göstərdi ki, İsrail İranın müdafiə sistemlərindən yan keçmək və iflic etmək iqtidarındadır. Vaşinqtonun Strateji və Beynəlxalq



Araşdırmalar Mərkəzinin fikrincə, İsrailin sərəncamında əlavə imkanlar var: təxminən 3200 km məsafədəki hədəflərə çata bilən orta mənzilli Jericho 2 ballistik raketi və Jericho 3 orta mənzilli ballistik raketi. 6400 km-dən çox məsafədə hədəfləri vura bilən raket.

## Vaşinqton hansı mövqedən çıxış edir?

Oktyabr ayında prezident Bayden İranın nüvə obyektlərinə hücumu dəstəkləməyəcəyini bildirmişdi. Şənbə günü Ağ Ev İsrail əməliyyatına dəstək ifadə edərək, onu məqsədyönlü və mütənasib adlandırıb. Şənbə günü ABŞ rəsmisi deyib ki, İsrail Bayden administrasiyasının rəsmilərinə zərbələrə hazırlaşdığını xəbərdar edib, lakin nə qədər qabaqcadan məlumat verməkdən imtina edib. Bəzi analitiklərin fikrincə, yaxınlaşan ABŞ prezident seçkiləri və Baydenin ikinci müddət üçün yarışdan çıxması administrasiyanın İsrailin hərəkətlərinin əhatə dairəsinə təsir göstərməsini və potensial olaraq məhdudlaşdırmasını çətinləşdirə bilər. Şənbə günü jurnalistlər üçün keçirdiyi brifinqdə Ağ Ev rəsmisi bildirib ki, administrasiya İsrailin hücumunun iki ölkə arasında hərbi zərbələrin mübadiləsinə son qoymalı olduğuna inanır. Bununla belə, o, əlavə edib ki, İran qisas alacağı təqdirdə ABŞ yenidən İsrailin müdafiəsinə qalxacaq.

**V.VƏLİYEV**

*Həm Azərbaycanın, həm də Türkiyənin, ümumiyyətlə türk dünyasının ictimai-siyasi həyatında onun əvəzsiz xidmətləri olub. Mustafa Kamal Atatürkün yaxın məsləhətçisi olan Əhməd bəy Ağaoğlu 1869-cu ildə Qarabağın nazlı gəlini Şuşa şəhərində anadan olub.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağın inciləri: firəng Əhməd

Əhməd bəyin atası Mirzə Həsən, XVIII əsrdə Ərzurumdan Gəncəyə köçüb gəlmiş, daha sonra isə Qarabağa yerləşmiş məhşur Qurdlar nəslindən olan pambıq fermeri idi, anası Təzə Xanım isə Qarabağın məşhur Sarıcalı nəslindəndir. Atasının nəslində hər kəsə Mirzə titulu verilirdi, çünki babası Mirzə İbrahim Şuşanın ən məşhur alimlərindən, habelə xəttat və şair olub. Əhməd bəyin əmiləri də təhsilli olub, fars, ərəb, rus dillərini mənimsəyiblər.

Əhməd bəy ənənəvi şiə dəyərlərinə bağlı olan mömin bir ailədə böyüyüb, əmisi onun ruhani olmasını istədiyi üçün ərəb və fars dillərində təhsil almasını istəyib. Mömin bir qadın olmasına baxmayaraq axund və mollalarla ulduzu barışmayan anası Təzə xanım isə oğlunu gizlincə rus dili dərslərinə yazdırır və dünyəvi təhsil almasına şərait yaradır. Əhməd bəy öz xatirələrində yazır ki, əmisinin dediyi istiqamətdə təhsil alsa istiqaməti Nəcəf, Kərbəla olacaqdı, amma o anasının dediyi istiqamətə - Peterburqa, Parisə gedir.

### Şuşadan Parisə uzanan yol

Əhməd bəy ilk təhsilini Şuşada mollaxanada alır, 1881-ci ildə Şuşada altı siniflik real məktəbi açıldıqdan sonra Qarabağ canişini müsəlman əhalini Xurşidbanu Natəvanın evinə toplayaraq uşaqlarını bu məktəbə qoymalarını istəyir. Atası da canişinə söz verərək Əhmədi Şuşa real məktəbinə göndərir. Bu məktəbdəki müəllimlərindən ikisinin, tarix müəllimi olan Şineyovski və riyaziyyat müəllimi olan Palekarpın Əhmədin yetişməsində böyük təsiri olur. Əhmədin bu məktəbdə sona kimi oxumasının ən başlıca səbəbi isə öz iradəsi olur, çünki erməni şagirdlərin çoxluğu cəmi 4 şagirdi müsəlman olan bu məktəbdə Əhmədə də problem yaradırdı, lakin o, digər müsəlman tələbələr kimi məktəbdən uzaqlaşmağı yox, əksinə, davam etməyi qarşısına məqsəd qoyur.

Yuxarı sinifləri oxumaq üçün daha sonra Tiflisdə, gimnaziyada oxuyur. Burada da təhsil alan tək türk şagird o olur. Sonra təhsilini davam etdirmək üçün Avropanın mərkəzinə – Parisə gedib. 1888-ci ildə Sarbonne universitetinin hüquq məktəbinə daxil olan ilk azərbaycanlı olan Əhməd bəy Ağaoğlu elmi rəhbəri Ernest Renandan çox şey öyrənir. Renanın xüsusilə dinlər haqqında yazıları onu cəlb edir. Oxuduğu müddətdə fransız qəzetlərindən 10-dan çox məqaləsi dərc edilir. Məqalələrini oxuyan Renan ona Fransada qalmağı və elmlə məşğul olmağı məsləhət görür. Lakin Əhməd bəy "mənim vətənimin də uşaqlarına müəllim lazımdır" deyərək təhsilini bitirdikdən sonra geri qayıdır və Şuşa gimnaziyasında fransız dilindən dərs verir. O dövrdə Fransada təhsil alan, fransız dilini bilən yeganə azərbaycanlı olduğu üçün yerli əhali ona ləqəb də qoymuşdu: "firəng Əhməd".

### Jurnalistikada yeni imza

Əhməd bəy öz doğma torpaqlarındakı uşaqlara dərs deyərək onların dünyəvi təhsil almasına çalışır, dindən, mövhumatdan uzaq olmalarını istəyirdi. 1897-ci ildə milyonçu Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya köçür. "Kaspi" qəzetinin əsas müəlliflərindən biri, eyni zamanda redaktoru olan Əhməd bəy ictimai-siyasi fəallığına görə Bakı Şəhər İdarəsinə üzv də seçilir. Onun ilk əsəri olan "Axund və İslam" da həmin illərdə yazılır. 7 il "Kaspi"də çalışan Əhməd bəyin qəzetdə 600-dən çox yazısı dərc edilib.

Əhməd Ağaoğlu tariximizə həm də qadınlara kişilərlə bərabər hüquq verilməsini tələb edən ilk ziyalılardan biri kimi düşüb. O öz yazılarında "azad qadın olmasa inkişaf da ola bilməz" deyirdi. 1905-ci ildə erməni daşnaklarının hədələrindən müdafiə məqsədi ilə "DİFAİ" adlı bir gizli özünümüdafiə təşkilatı yaradır. Həmin ərəfədə Tağıyevin maliyyə yardımı ilə Əli bəy Hüseynzadə ilə birgə "Həyat" qəzetini buraxmağa başlayır, bir il sonra "İrşad"ı, sonra isə "Tərəqqi"ni nəşr etdirir. Bütün Qafqazda Azərbaycanın haqq səsi olan ədibə qarşı ermənilər tərəfindən ciddi təzyiqlər baş qaldırır.





### Elçiliyini özü edir

Əhməd bəyin həyat yoldaşını özü görərək sevməsi, öz elçiliyini özü etməsi də maraqlı məqamlardandır. Dövrün adətlərinə görə oğlanlar ailə quranda gələcək həyat yoldaşlarını anaları, bacıları seçib bəyənirdi. Lakin Əhməd bəy öz sevdasını özü tapır. Sitarə xanımın əmisi oğlu ilə dostluq edən gənc Əhməd bir gün Fərrux bəyin qonağı olanda bu alagözlü Qarabağ qızını görüb aşiq olur. O, elçiliyini özü edir, amma bu hərəkəti Sitarə xanımın nənəsinin xoşuna gəlmir, qızı vermək istəmir. Nənənin bu hərəkəti Əhməd bəyi pərişan edir, o həmin vaxt Peterburqda olan Fərrux bəyi görməyə gedir və ona məramını anladır. Bundan sonra Fərrux bəy əmisinə teleqram vurur və Sitarəni Əhməd bəyə verdiyini deyir. Beləcə, onlar evlənir.



1903-cü ildə onların ilk övladı doğulur. O dövrdə müsəlman adətlərinə görə ailənin oğlu olması daha şərəfli sayılırdı və kişilər oğlunun olması ilə öyünürdü. Lakin ilk övladı qız olduğuna görə Əhməd bəy tanıdığı-tanımadığı hamıya muştuluq paylayır, xanımına isə bu münasibətlə 12 qızıl düymə hədiyyə edir. Onların 6 övladı olur – 3 qız, 3 oğlan. Sitarə xanım Əhməd bəyə həqiqi həyat yoldaşı olur, yaxşı və pis günündə onun əlini buraxmır. Əhməd bəy Malta sürgünündə olarkən qürbətdə 6 uşaqla çox çətinlik çəksə də bunların heç birini həyat yoldaşına hiss etdirmir. O Əhməd bəyin yazmaq eşqinə həmişə hörmət edir, öz cehizlərinin satılaraq qəzet buraxılması fikrini dəstəkləyir.

Həmin ərəfədə Bakıdakı iri, xarici neft maqnatları yerli sahibkarlara, ermənilər isə müsəlman əhaliyə ciddi təzyiq göstərirdi. Bakı milyonçuları bu vəziyyəti yoluna qoymaq üçün Əhməd bəy Ağaoğlunu Sankt-Peretburqa, II Nikolayla danışığa göndərirlər. Bu ərəfədə "DİFAİ" müsəlman əhalini çar zülmündən, erməni terrorundan qorumaqda müstəsna xidmətlər göstərirdi. Qarabağda bir çox faciənin qarşısı məhz bu partiyanın sayəsində alınırdı. Lakin təhlükə günü-gündən böyüyür, Əhməd bəyin özünə və ailəsinə qarşı ciddi təqiblər və təzyiqlər olduğu üçün o, ailəsini də götürərək 1908-ci ildə Türkiyəyə, ozamankı Osmanlı İmperiyasının paytaxtına - İstanbula köçür.

İstanbulda o, Parisdə birlikdə oxuduğu dostlarının köməyi ilə "İttihad və Tərəqqi Cəmiyyəti"nə qoşulur, "Gənc türk", "Tərcümani-həqiqət" qəzetlərinin baş redaktoru olur. 1911-1912-ci illərdə İstanbul universitetində çalışır, 1915-ci ildə isə imperiyanın ictimai-siyasi həyatında fəal bir fiqur olan Əhməd bəy parlamentə deputat seçilir. Azərbaycanda Xalq Cumhuriyyəti qurulandan sonra Əhməd bəy Nuru Paşanın müşaviri kimi Azərbaycana qayıdır və AXC parlementinə deputat seçilir. Lakin Qafqaz İslam Ordusu Azərbaycandan çıxanda Əhməd bəy də Türkiyəyə qayıdır. Bu həmin vaxt idi ki, ingilislər İstanbulu işğal etmişdi.

Fəal yazar-jurnalist kimi qəzetlərdə dərc edilən yazıları ingilisləri, erməniləri narahat etməyə başlayır. O, ermənilərə qarşı cəbhə almaqda ittiham edilir və Malta adasına sürgün edilir. 1921-ci ildə Atatürk Malta əsirləri ilə ingilis əsirləri dəyişdirərkən azad olan əsirlər arasında Əhməd bəy də vardı. O Nəriman Nərimanova İtaliyadan məktub yazaraq vətənə dönmək, öz millətinə xidmət göstərmək istədiyini bildirir. Nəriman Nərimanov Əhməd bəy Ağaoğlunu Azərbaycana dəvət edərək müqabilində ona yüksək vəzifə vəd edir. Lakin məktub ona çatdığı zaman Əhməd bəy artıq İstanbulda idi və ictimai-siyasi həyatın, azadlıq mübarizəsinin içində olduğu üçün İstanbulda qalmaq, mübarizə aparmaq istəyir.

Mustafa Kamal Atatürk onu 1921-ci ildə mətbuat üzrə ümummüdir vəzifəsinə təyin edir, Əhməd bəy Qurtuluş savaşının təbliğatçılarından birinə çevrilir. Əhməd bəyin yeni Türkiyə üçün hansı önəmi daşıdığını bu vəzifə ilə anlamaq olur. Həssas bir vaxtda, milli azadlıq məsələlərinin təbliğ edilmə dövründə ən strateji posta onun rəhbərlik etməsi Atatürkdə ona olan inamın, etibarın sübutu idi. Anadolu Agentliyinin qurucularından biri olması, "Hakimiyyəti-Milliyə" kimi rəsmi qəzetlərin baş redaktoru təyin edilməsi də bu dövrə təsadüf edir. Bundan sonra Ağaoğlu Cümhuriyyətin Böyük Millət Məclisinə deputat seçilir.

1933-cü ildə həyat yoldaşı Sitarə xanımın vəfatından sonra Əhməd bəy böyük sarsıntı keçirir. Bu itkidən sonra ictimai fəaliyyətində əvvəlki kimi fəal olmur və 6 il sonra, 1939-cu ildə özü də vəfat edir. Ölüm yatağında olarkən övladlarına olan yeganə nəsihəti heç vaxt doğrulardan uzaqlaşmamaq olur. Onun ölümü barədə məqalələr Türkiyədə dərc olunan mətbu orqanlarda günlərlə dərc edilir. Əhməd bəy Ağaoğlunun qızı Süreyya Ağaoğlu Türkiyənin ilk qadın millət vəkili olub, digər qızı Təzər, oğlu Səməd də deputat olub.

Əhməd bəy bütün həyatı boyunca o qədər məhsuldar yazıb ki, ona ədəbi camedə "yazı maşını" deyiblər. Yorulmadan, usanmadan, türk dünyasının fədaisi olaraq bütün həyatı boyunca yalnız bir devizi olub: "Türklüyə xidmət hər yerdə müqəddəsdir!".

**Lalə Mehralı**

SON SƏHİFƏ

# SƏS

29 oktyabr
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Çində uçan avtomobil zavodu tikilir



***Çinin "XPeng" şirkəti ölkənin cənubundakı Quançjou əyalətində uçan avtomobil istehsal edəcək zavodun tikintisinə başlayıb. Bu barədə Sinxua agentliyi məlumat yayıb.***

Bu, dünyada ilk irimiqyaslı istehsala malik zavod olacaq. Birinci mərhələdə "Land Aircraft Carrier" (LAC) avtomobilləri üçün uçan modul istehsal olunacaq. Zavod ildə təxminən 10 min belə modul istehsal edə biləcək.

LAC modulu "Airshow China" sərgisində nümayiş etdiriləcək. Tədbir noyabrın 12-dən 17-dək baş tutacaq. Uçan modulun ilk ictimai uçuşunu orada edəcəyi gözlənilir. Quançjou şəhərinin hakimiyyəti 2027-ci ilədək uçan avtomobillər üçün infrastrukturun inkişafına 10 milyard yuan (1,4 milyard dollar) investisiya qoymağı planlaşdırır.

# XƏBƏRDARLIQ -gələn ay bu ilin ən güclü maqnit qasırğaları gözlənilir



Noyabrın 5-i və 12-si üçün proqnozlaşdırılan orta intensiv maqnit qasırğaları dövründə insanlar yuxululuq və çaşqınlıq da daxil olmaqla daha az şiddətli, lakin nəzərəçarpacaq simptomlarla qarşılaşa bilərlər. Həkimlər bu günlərdə sağlamlığınıza xüsusi diqqət yetirməyi və lazım gələrsə, adi gündəlik rejiminizi tənzimləməyi tövsiyə edirlər.

***Mütəxəssislər 2024-cü ilin noyabrında bir sıra güclü maqnit qasırğalarının olacağını proqnozlaşdırırlar. SİA xarici mediaya istinadla xəbər verir ki, ən güclü geomaqnit pozuntuları 1, 3, 9, 17 və 20 noyabrda, maqnit qasırğalarının orta intensivliyi isə gələn ayın 5-i və 12-də gözlənilir.***

Maqnit qasırğaları hava şəraitinin dəyişməsinə həssas olan insanların sağlamlığına ciddi təsir göstərə bilər. Həmin günlərdə başağrısı və miqrendən tutmuş emosional qeyri-sabitliyə və iş qabiliyyətinin ümumi azalmasına qədər müxtəlif simptomlarla üzləşə bilərsiniz.

# Qusarda ölümlə nəticələnən yol qəzası olub



Qusarda ölümlə nəticələnən yol qəzası baş verib. Belə ki, rayonun Həzrə kəndində Ağasi Məmmədbəyov idarə etdiyi "LADA 21 10" markalı avtomobillə piyada Səlim Qubatovu vurub. Piyada aldığı xəsarətdən hadisə yerindəcə ölüb. Faktla bağlı cinayət işi başlanılıb.

# Azərbaycanın sərbəst güləş yığması dünya üçüncüsü olub

***Azərbaycanın sərbəst güləşçiləri Albaniyanın paytaxtı Tiranada keçirilmiş U-23 dünya çempionatını dörd medalla başa vurublar.***



Azərbaycan Güləş Federasiyasından (AGF) SİA-ya verilən məlumata görə, milli komanda mundialda 1 qızıl, 2 gümüş və 1 bürünc medal əldə edib. Yekunda 100 xal toplayan yığmamız komanda hesabında dünya üçüncüsü olub. İran (158) birinci, Yaponiya (102) isə ikinci yeri tutub.

Xatırladaq ki, milli komandanın tərkibində Maqomed-Başir Xaniyev (70 kiloqram) qızıl, Ruslan Abdullayev (61 kiloqram) və Arseni Djioyev (86 kiloqram) gümüş, Cəbrayıl Qadjiyev (74 kiloqram) isə bürünc medal qazanıblar.

## ELAN

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tərəfindən 26.10.2024-cü il tarixində müsabiqə üçün dərc olunmuş elandakı Kamera ansamblı kafedrasında göstərilmiş müəllim vəzifəsi ləğv edilsin.

* * *

Yeni Azərbaycan Partiyasının Ağstafa rayon təşkilatı tərəfindən Məmmədov Arif Bayram oğluna verilmiş 731671 nömrəli üzvlük vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

* * *

Yeni Azərbaycan Partiyasının Ağstafa rayon təşkilatı tərəfindən Qasımov Musa Hüseyn oğluna verilmiş 719404 nömrəli üzvlük vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700